**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Dibirova Ləman Vaqif**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" ________________ 2022-ci il**

# "II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060410 - Dövlət və bələdiyyə idarəetməsi

**İxtisaslaşma:** Dövlət strukturlarında menecment

**Qrup:** 256

**Magistrant:**
**Dibirova Ləman Vaqif qızı**
**________________________ imza**

**Elmi rəhbər:**
**s.e.ü.f.d., b/m. Məhərrəmov Rəşad Rəhim oğlu**
**_____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**___________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Dibirova Ləman Vaqif qızı and içirəm ki, “II Qarabağ müharibəsindən sonra dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin prioritet istiqamətləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: II Qarabağ savaşından sonra ölkə ərazisində işğaldan azad olunmuş ərazilərin yenidən bərpası prosesinə başlanılmışdır. Hazırda həmin ərazilərdə üzrə əsas məsuliyyət dövlət və yerli özünüidarəetmə orqanlarının üzərinə düşür.Bu səbəbdən, dövlət və yerli özünüidarə etmə orqanları və onlaın iş prinsiplərinin müəyyənləşməsi haqqında hədəflər əsas yer tutur.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi ölkə üzrə dövlət və yerli idarəetmə orqanlarını dünəndən bugünədək inkişaf istiqamətlərini araşdırmaq, işğaldan azad olunmuş ərazilərin bərpasında və inkişafında mühüm rol oynayacaq dövlət və yerli özünüidarəetmə orqanlarının fəalliyyət istiqamətlərini müəyyənləşdirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işinin tədqiqi prosesində yerli idarəetmə orqanlarının iqtisadi-statistik metodan, müqayisəli təhlildən, analitik və tarixi təhlildən , elmi ümumiləşdirmə metodundan istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işində informasiya bazasını kimi dövlət və yerli özünü idarə orqanlarının tarixi, normativ-hüquqi aktları, yerli və xarici mütəsxəssislərin rəyləri, xaricdə bu fəaliyyət sahəsi üzrə çap olunmuş məqalələr ,elmi işlər, dərsliklər, həmçinin statistik göstəricilər və internet resuslarındakı uyğun müvafiq məlumatlar əhatə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: İnkişaf etmiş xarici ölkələrlə müqayisədə ölkəmizdə fəaliyyət göstərən yerli idarəetmə orqanlarının resurslarındakı çatışmazlıq, xidmət səviyyəsinin analizi, xalqla – bələdiyyələrin ictimai əlaqələrinin tam şəkildə təmin olunmaması, fəaliyyət və inkişaf istiqamətləri barədə nə kimi addımlar atacağı yönündə informasiya verilməməsi bir sıra məhudiyyətləri ortaya qoymuşdur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərdə yerli özünüidarəemə orqanlarının beynəlxalq standartlar əsasında optimal xidmətin göstərilməsi, coğrafi mövqelərin və xüsusiyyətlərin müəyyənləşdirilməsi aparılmalıdır. Resurs bölgüsünün düzgün təmini nəticəsində güclü inzibati və sosialyönümlü mexanizmlər yaradılmalıdır. Bu sayədə qənaətlilik, səmərəlilik, çevik xidmət prosesi olacaq ki, bu da Yerli özünüidarəemə orqanları və dövlətin infrastrukturuna əhəmiyyətli dərəcədə təsirini göstərəcək.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat işi üzrə aparılmış araşdırmalar işğaldan azad olunmuş ərazilərdə yerli özünüidarəetmə orqanlarında yenidən qurma və təşkili ilə bağlı proqram və layihələrdə istifadə oluna bilər.**

***Açar sözlər: yerli özünüidarəetmə,dövlət, işğaldan azad olunmuş ərazilər,bələdiyyə.***

**AFTER THE WAR II KARABAKH PRIORITY DIRECTIONS OF ACTIVITIES OF STATE AND LOCAL SELF-GOVERNMENT BODIES**

**SUMMARY**

**The actuality of the subject: After the Second Karabakh War, the process of re-establishing the liberated territories in the country began. At present, the main responsibility for these areas falls on the state and local governments. For this reason, the goals of defining the principles of state and local self-government bodies and online work are of paramount importance.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to study the development directions of state and local government bodies in the country from yesterday to today, to determine the activities of state and local self-government bodies that will play an important role in the restoration and development of liberated territories.**

**Used research methods: In the process of researching the dissertation, the economic-statistical method of local government, comparative analysis, analytical and historical analysis, the method of scientific generalization were used.**

**The information base of the research: The research covers the history of state and local self-government bodies, normative-legal acts, opinions of local and foreign experts, articles published in this field abroad, scientific works, textbooks, as well as statistical indicators and relevant information on Internet resources.**

**Restrictions of research: In comparison with developed foreign countries, the lack of resources of local governments operating in our country, analysis of the level of service, incomplete public relations with the people - municipalities, lack of information on what steps to take activities and development have revealed a number of limitations.**

**The novelty and practical results of investigation: Local self-government bodies should be provided with optimal services on the basis of international standards, and geographical positions and characteristics should be determined. Strong administrative and social mechanisms should be established as a result of proper allocation of resources. In this way, there will be a cost-effective, efficient, flexible service process, which will have a significant impact on local self-government and state infrastructure.**

**Scientific-practical significance of results: The research can be used in programs and projects related to the reconstruction and organization of local self-government in the liberated territories.**

***Keywords: local self-government , state, liberated territories, municipality***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**AR** Azərbaycan Respublikası

**YÖİ** Yerli özünüidarəetmə

**OİP** Onuncu İnkişaf Planı

**KİV** Kütləvi İnformasiya Vasitələri

**DSK** Dövlət Statistika Komitəsi

# MÜNDƏRİCAT


**GİRİŞ........................................................................................................8**

**I FƏSİL.DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI VƏ ONLARIN FƏALLİYYƏT İSTİQAMƏTLƏRİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI.........................................................12**

1.1 Dövlət və yerli özünüidarəetmə orqanlarının yaranma prosesi və inkişaf tarixi..12

1.2 Dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyət istiqamətlərinin nəzəri və metodoloji əsasları........................................................................................22

**II FƏSİL.AZƏRBAYCANDA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ...............30**

2.1 Azərbaycanda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili prinsipləri........................................................................................30

2.2 Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin yaradılmasının əhəmiyyəti ..................................................38

**III FƏSİL.II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI VƏ ONLARIN İNKİŞAF PROBLEMLƏRİ........................................................................................43**

3.1. II Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyət problemlərinin araşdırılması........................43

3.2 II Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının inkişaf hədəfləri ..........................................................50

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.....................................................................59**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI: ............................................62**

**Cədvəllərin siyahısı ............................................................................67**

# GİRİŞ

**Mövzunun aktuallığı**: Yerli idarə orqanları ölkəmiz daxil olmaqla digər ölkələr üzrə də iqtisadi islahatların həyata keçirilməsində önəmli yeri tutur.YÖİ ölkənin hüdudları daxilində fərqli ərazilərdə məskunlaşan vətəndaşların ehtiyaclarını qarşılayan qanunla nəzərdə tutulmuş fəaliyyət göstərən orqanlardır. Bələdiyyələr və YÖİ orqanları normativ hüquqi akt çərçivəsində onların fəaliyyətinə verilən və dövlətin nəzarətində olan ərazilərə baxış və nəzarət funksiyasını icra edirlər. Burada orqanın büdcə siyasəti dövlət qurumları tərəfindən tənzimlənir.

YÖİ orqanları dövlətin yerlərdə müxtəlif sahələrin idarə olunması istiqamətində fəaliyyət göstərir. Yerləşmə yerindən, coğrafi mövqeyindən asılı olaraq cəmiyyətin ehtiyacları sosial-mədəni, iqtisadi qaydada ödənilərək, yerli əhalinin rifahının yüksəldilməsi təmin edilir. İqtisadi, sosial-mədəni, siyasi dinamika üzrə məsələlər təhlil olunaraq, qaldırılan problemlərin həlli istiqamətində müvafiq işlər görür.

Bildiyimiz kimi II Qarabağ müharibəsindən sonra ölkə ərazisində işğaldan azad olunmuş ərazilər üzrə yeni tədbirlər planı hazırlanır. Hazırda həmin ərazilər üzrə dövlət strukturlarının fəaliyyət rejimi barədə qərarlar təsdiq olunmuşdur. Elektron xidmət üzrə yaradılmış tətbiqlərin bələdiyyə və ölkə vətəndaşlarının işini olduqca rahatlatmışdır. Çünki bu tətbiqin köməyilə bələdiyyələr haqqında informasiya almaq hüququ əldə edəcəklər. Cənab Prezident İ.H.Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf istiqamətində Milli Prioritetlər" in hazırlanması və təsdiqi istiqamətində verdiyi sərəncama əsasən I Qarabağ savaşında öz torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin II Qarabağ savaşından sonra müəyyən işlər görüldükdən sonra torpaqlarına qayıtması və məskən salması nəzərdə tutulmuşdur. İşğaldan azad olunan ərazilərimiz üzrə əsas məsuliyyət YÖİ orqanlarının üzərinə düşür. 1999-dan bu günə kimi fəaliyyət göstərən ölkə yerli idarəetmə orqanlarının o zamandan bu günədək işğal olunmuş bölgələr üzrə 950 və daha artıq yaşayış məntəqələrindəki seçkilərini keçirə bilmədikləri üçün təxminən 1 mln vətəndaşımız

qanuna müvafiq olaraq YÖİ hüquqlarını istifadə edə bilməmişdir. Lakin 44 gün ərzində taleyi həll olunan II Qarabağ savaşından sonra, hazırda ölkəmizdə həmin ərazilər üzrə dəymiş zərər hesabatı aparılır və ərazilər minalardan təmizlənir. Cari vaxtda torpaq islahatları həyata keçirilərək, məcburi köçkünlərin öz doğma torpaqlarında məskunlaşması məqsədilə yenidənqurma işləri aparılır. Daha sonra həmin ərazilərdə YÖİ orqanları yaradılaraq, iş prinsiplərinin müəyyənləşməsi haqqında hədəflər əsas yer tutur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** II Qarabağ müharibəsindən sonra dövlət və yerli özünüidarəetmə orqanlarının təşkili və idarəedilməsi prinsiplərinin araşdırılması üzrə müxtəlif elmi tətqiqatlar aparılır.

Ölkəmizdə dövlət və yerli özünüidarəetmə orqanlarının təşkili ilə bağlı məsələlər Yusifov S., İsmayılov V., A.Hüseyn., İbrahimov İ., və.s tərəfindən ətraflı araşdırılmış və əsərlərində qeyd olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın başlıca məqsədi işğaldan azad olunmuş regionda dövlət və yerli idarəetmənin hazırkı modelinin və həmin ərazilərə yeni idaəetmə modelinin tətbiqi ilə bağlı prioritetlərin araşdırılmasıdır.

Tədqiqat işinin vəzifəsi isə, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün yaranmış problemləri təhlil edərək, həlli istiqamətində təkliflər verməkdir. Tətqiqatın məqsədinə nail olmaq üçün isə aşağıda qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün addımlar atılmışdır.

- Dövlət və yerli özünüidarəemə orqanlarının yaranma tarixinin, funksiyalarının və fəalliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;
- Azərbaycanda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili prinsiplərin təhlili;
- II Qarabağ müharibəsində sonra azad olunmuş ərazilərdə xüsusi idarəetmənin tətbiq olunması və onun tətbiqinin nəticələri;
- II Qarabağ müharibəsində sonra azad olunmuş ərazilərdə müxtəlif sahələrdə yeni islahatların keçirilməsi zəruriliyinin müəyyənləşdirilməsi və tətbiqi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın predmeti ölkəmizdə fəaliyyət göstərən dövlət və yerli özünüidarəetmə orqanlarının iş prinsipi, obyekti isə II Qarabağ müharibəsində sonra azad olunmuş ərazilərdə dövlət və yerli özünüidaəetmə orqalarının təşkili problemlərinin həlli istiqamətində atılan addımlar və tədbirlər planıdır.

**Tədqiqat metodları:** Dissertasiya işinin tədqiqi prosesində iqtisadi-statistik metoddan, müqayisəli təhlildən, analitik və tarixi təhlildən , empirik, elmi ümumiləşdirmə metodundan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işində informasiya bazası kimi dövlət və yerli özünü idarə orqanlarının tarixi, normativ-hüquqi aktları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin statistik və analitik-proqnoz məlumatları, yerli və xarici mütəsxəssislərin rəyləri, xaricdə bu fəaliyyət sahəsi üzrə çap olunmuş məqalələr və elmi işlər, dərsliklər, həmçinin statistik göstəricilər və internet resuslarındakı uyğun müvafiq məlumatlar əhatə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** İnkişaf etmiş xarici ölkələrlə müqayisədə ölkəmizdə fəaliyyət göstərən yerli idarəetmə orqanlarının resurslarındakı çatışmazlıq, xidmət səviyyəsinin analizi, xalqla – bələdiyyələrin ictimai əlaqələrinin tam şəkildə təmin olunmaması, fəaliyyət və inkişaf istiqamətləri barədə nə kimi addımlar atacağı yönündə informasiya verilməməsi bir sıra məhudiyyətləri ortaya qoymuşdur.

**Tədqiqatın elmi yeniliyi:** İşğaldan azad olunmuş ərazilərdə yerli özünüidarəemə orqanlarının beynəlxalq standartlar əsasında optimal xidmətin göstərilməsi, coğrafi mövqelərin və xüsusiyyətlərin müəyyənləşdirilməsi aparılmalıdır. Resurs bölgüsünün düzgün təmini nəticəsində güclü inzibati və sosialyönümlü mexanizmlər yaradılmalıdır. Bu sayədə qənaətlilik, səmərəlilik, çevik xidmət prosesi olacaq ki, bu da Yerli özünüidarəemə orqanları və dövlətin infrastrukturuna əhəmiyyətli dərəcədə təsirini göstərə

**Nəticələrin elmi-praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqat işinin praktik əhəmiyyəti bu istiqamət üzrə aparılmış araşdırmalar nəticəsində II Qarabağ Müharibəsindən sonra azad olunmuş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının təşkilinin  və inkişaf istiqamətlərinin öyrənilməsi ilə əlaqəlidir.

# I FƏSİL. DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI VƏ ONLARIN FƏALLİYYƏT İSTİQAMƏTLƏRİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1.Dövlət və yerli özünüidarəetmə orqanlarının yaranma prosesi  və inkişaf tarixi

İnkişaf etmiş ölkələr üzrə tarixi təcrübə onu göstərir ki, ölkədə vətəndaşlara xidmət göstərən cəmiyyətin formalaşması, demokratiyanın təmin olunması,  dövlətin hüquqi normalarını tənzimləmək məqsədilə mühim problemlər ancaq o halda həll oluna bilər ki, yerli özünüidarəetmə sistemi inkişaf etsin.

Hər bir cəmiyyətdə daxili xüsusiyyətlər mövcuddur. Bu xüsusiyyətlər inkişaf etmək, cəmiyyəti formalaşdırmaq, mahiyyətini anlamaq və zamanla bu prinsiplərdə bəzi dəyişikliklər və təkmilləşdirmələr edilməsində özünü göstərir.

Özünüidarəetmə dedikdə regional birliyin, təşkilatın və kollektivin fəaliyyətinin onun üzvləri tərəfindən seçkili orqan vasitəsilə, eyni zamanda müstəqil halda (iclas, referendum və s.) ifadəsi başa düşülür.

İstehsalın əsas hərəkətverici qüvvəsi sayılan bazar və ya ictimai mülkiyyət əsasında planlı cəmiyyətlərdə müəyyən insanlarla münasibətlər sistemi iqtisadiyyatın əsas tənzimləyicisi hesab edilir.

Yerli hakimiyyət orqanı daha ümumi hüquqi müddəalarını pozmadan, yerli ehtiyaclara cavab verən və səmərəli idarəçiliyi təşkil edən öz daxili inzibati strukturlarını özləri nəzarət etmək hüququna malik olmalıdırlar.

Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti və təcrübə və səriştəliliyin nəzərə alınması xüsusiyyətlərini nəzərə almaqla yüksək ixtisaslı kadrlar seçimini təmin etmək məqsədi güdməlidir. Bunun üçün peşə hazırlığının, əməyin ödənilməssinin və vəzifədə irəliçəkilmənin müvafiq şərtlərinin təmin edilməsi vacibdir.

Yerli seçkili məmurların statusu onların səlahiyyətlərinin sərbəst şəkildə icrasını təmin etməlidir. Həmçinin, yerli seçkili orqanların statusu onların öz səlahiyyətlərini həyata keçirmələri ilə əlaqədar xərclərin müvafiq maliyyə planlamasını, habelə əmək haqqı kompensasiyanı və müvafiq sosial sığortanı almağa imkan verməlidir. Yerli seçilmişlərin vəzifələrinə uyğun gəlməyən hər hansı funksiya və fəaliyyəti ancaq qanunla yaxud vacib hüquqi qaydalarla müəyyən edilə bilər.

Özünü idarəetmənin əsas xüsusiyyətləri bunlardır:

- Müvafiq rayonun əhalisinin və ya seçicilərinin, ictimai təşkilatların, kollektivlərin üzvlərinin hakimiyyətə sahib olması;
- Daxili həyati problemlərin həlli prosesində müstəqillik, xaricdən təyin edilmiş orqanların mövcudluğunun olması.

Yerli özünüidarə etmə orqanları demokratiklik yönündə inkişaf tempinə təsir göstərir və bu zaman modern dövrün tələblərinə cavab verən demokratiklik hökm sürür.

Yerli özünüidarəetmə sisteminin qurulmasının əhəmiyyəti vətəndaş cəmiyyətinin yerli demokratiyasının inkişafı yolu üçün birbaşa kömək edir. Yəni, bu, müasir demokratiyanın əsasını formalaşdırmağa təzahür yaradır ki, bu da demokratiyanın necə təsis olunması və  cəmiyyətin formalaşmasında demokratiya dövrünü yaşayan vətəndaşlarımız üçün olduqca mühim əhəmiyyət kəsb edir.

Yerli özünü darəetmə orqanları dedikdə , ölkə ərazisində müxtəlif ölçüdə hüquqi şəkildə qurulan və  ərazidə yaşayan vətəndaşların ümumi və yerli ehtiyaclarını ödəmək üçün qurulan dövlət strukturlarıdır.

Qərblə Şərqin ziddiyyəti üzərində qurulmuş liberal dünyagörüşünün tarixi inkişaf xəttinə görə; Qərbdə yerli idarəetmə institutunun yaranması dövlətə rəğmən aşağıdan yuxarı formalaşır. Şərqdə isə yuxarıdan aşağıya doğru yerli özünüidarələrin meydana çıxmışdır. Bir sözlə, yerli idarəetmə institutu Qərbdə cəmiyyətin məhsulu olduğu halda, Şərqdə dövlətin məhsuludur.Baş vermiş iqtisadi böhranlar, çevik texnologiya inkişafı idarəetmə sahələrinə də öz təsirini biruzə verdi.

Qərbi Avropada ilk dəfə olaraq özünüidarə sistemi burjua inqilabları nəticəsində yaranmışdır. Yerli özünüidarə orqanlarının hüquqlarının genişləndirilməsi müasir kapitalist dövlətlərində ən demokratik tələblərdən biridir. Sosialist dövlətlərində yerli özünüidarə digər əsaslar üzərində yerli nümayəndəli dövlət orqanları vasitəsilə yaradılır.

Bələdiyyələr əsasən bələdiyyə sədri, mer və başqalarının rəhbərlik etdiyi seçkili idarə heyəti və icra aparatından ibarətdir. Onlar müvafiq inzibati rayonun əhalisi tərəfindən seçilir. Bələdiyyənin əsas gəlir mənbəyi əhalidən çox vaxt abadlıq, səhiyyə, yerli polis, dövlət məktəbləri və digər işlərlə bağlı yerli vergilərdir.

Onlara verilmiş səlahiyyət çərçivəsində öz vəzifələrini icra edərək, dövlətin inkişafı yönündə və idarə olunması istiqamətində addımlar ataraq, müasir cəmiyyətin tələbatını qarşılayırlar. Hazırda ölkəmizdə bu prosedurların icrası geniş vüsət almasa da, bəlli istiqamətində irəli səviyyədə addımlar atılıb. Əsas məqsəd yüksək xidmət səviyyəsinin icrasıdır. Xalqı təmsil edən YÖİ orqanları daimi olaraq özlərini inkişaf etdirərək, ölkə resurslarını mütənasib şəkildə fəaliyyətlərinə uyğun tənzimləyirlər. Onların maliyyələşməsi və resurs bazalarının təmini dövlətin üzərinə düşür.

Nümunə olaraq, 2014 ili üzrə may ayına baxsaq görərik ki, Avropa Komissiyası Avropa İctimai Birliyinə üzv olmuş hökumətləri kordinatlaşdıraraq, yerli və regional dövlətlərin əlaqələrini müxtəlif şəkildə tənzimləmişdir. Ölkə miqyasına düşən əhali payı üzrə şəhər və kəndlərin mövcudluğu bələdiyyələrin və digər yerli özünüidarə orqanlarının bölünməsinə və əlaqələrin artmasına zəmin yaradır. Bu yerli orqanlar üzrə mövcud olan fərqliliyin hər birinin tarixi dövrü mövcuddur.

Köhnə Çexoslovakiyanın dövlət idarəetmə institutlarını Avstriya-Macarıstan vaxtında miras kimi saxlamışdılar. İngiltərənin və Fransanın yerli özünüidarə orqanlarına tətbiq etdiyi sistemlə Avstriyanın tətbiqi etdiyi sistem təbii olaraq fərqlənir. Əsas fərq omdam ibarət idi ki, burada bürokratiya və çoxmillətlilik hökm sürürdü. Həmçinin, onu da demək olar ki, Çexiya qəbul etdiyi siyasətini, torpaqlarını, təmsil hüququnu olduqca önəmli hesab edirdi. Dövlətin idarə olunmasının əsas

mövqeyi kimi müstəqillik prinsipi altında Çexiyanın yerli müxalifətçiləri öz siyasətlərini irəli sürürdülər (https://www.researchgate.net/publication/270736615_The _Historical_Roots_of_Local_Self-Government _in_ the_Czech_and _the_Slovak _Republics).

Məhz Avstriya və Macarıstanın arasında baş verən siyasi qarşıdurmalar da buna misaldır. Qədim Çexoslovakiya, eləcə də başqa Avropa ölkələri üzrə yerli hökümətlərin inkişaf prosesi bir sıra çətin mərhələlərdən keçdi. Tarixi dövrlər üzrə müxtəlif vaxtlarda mərkəzləşdiril-məmiş siyasətlərin və yerli özünüidarə orqanlarının fəaliyyət rejiminin planı müvəffəqiyyətlə reallaşdırıldı. Bir sıra dövlətlərdə müxtəlif dövrlər üzrə mərkəzləşdirmə prosesləri onsuzda aparılırdı.

Kromeriz Konstitusiyasının təkli etdiyi iddialara görə bələdiyyələrə verilmiş hüquqlar(https://www.researchgate.net/publication/270736615_The_Historical_Roots_of_Local_Self-Government_in_Czech_and_Slovak_Republics ,2015) :

- Nümayəndənin müstəqil seçmə imkanı
- Bələdiyyə Birliyinə üzvlərin qəbulu
- Mülk məsələlərin idarə olunmasına nəzarətin həyata keçirliməsi
- YÖİ orqanının təyin etdiyi prinsip.

1849-cu ilin 4 martında qərar kimi səsləndirilərək, həmin ilin 7 martında elan olunan bu prinsipləri konstitusiyada öz əksini tapmışdır. Eyni il üzrə göstəricilərdə dövlət tənzimlənməsi istiqamətində yerli özünüidarə etmə orqanlarının sərbəst şəkildə fəaliyyətini təsdiqləyən hüquqi çərçivədə qanunlar qüvvəyə mindi.

17/1863 saylı qanun, 7/1864 saylı qanun və 4/1864 nömrəli normativ hüquqi akt kimi təsdiq olunmuş qanunlar Sileziyanın bələdiyyə sisteminin dövlətin qanunlarına müvafiq şəkildə tənzimlədi. Hansı ki 1863-də Sileziyanın, 1864-də isə Bohemiyanın və Moraviyanın bələdiyyələri üçün bu qanunlar şamil olunurdu.

Çexiya və Slovakiya dövlətlərinin yerli özünüidarə orqanları üzrə əsasının qoyulmasının tarixi mənşəyi suveren dövlət hüquqlarının tənzimlənməsinə dayanırdı. Bələdiyyə seçkiləri nəticəsində əmlaklar siyahıya salınır. Burada din xadimləri arasında fərq qoyulması da mövcud idi. Bu da yerli hökümətin seçim imkanlarını

artırırdı. 1907-ci ilədək bu dövr belə də davam etdi. Daha sonralar hakimiyyətin müstəqil olaraq idarə olunması, mənafelərin üstün tutulması vəziyyəti dəyişdi. Belə ki dövlətin bələdiyyələrə verdiyi hüquqlar və tələblər mövcud idi (https://www.researchgate.net/publication/270736615_The_Historical_Roots_of_Local_Self-Government_inthe_Czech_and_theSlovak_Republics,2015).

Bununla belə, bəzi yerli özünüidarəetmə orqanlarının inkişaf prosesi şəraitdən asılı olmayaraq müntəzəm olaraq həyata keçirilir. Məhz nəzarət sisteminin gücü dövlətin və yerli özünüidarənin inkişafına təkan verir. Liberal burjuaziyalar dövlətin siyasi maraqlarında qanunla nəzərdə tutulmuş qaydada maraqlı şəxs kimi çıxış etsə də, yerli özünüidarə etmə orqanları yaradılması və formalaşması yönündə daha çox addımlar atıldı. Başqa yöndən, bir sıra iqtisadi baxımdan maliyyələşmə də ön planda tutulurdu, ona görə ki yerli hökümətlərin dövlətin tabeçiliyində olması daha yüksək xərclərə gətirib çıxarırdı. Bu səbəblə yerli özünüidarə orqanlarının inkişaf tendensiyaları seçim istiqaməti olaraq öndə tutulurdu. Bədiyyələrin sahiblik və ondan istifadə etmək hüququ həm də mülkiyyətin idarə edilməsini, mənzil və vətəndaş hüquqlarını tənzimləyir. Bələdiyyələr həm də əmlak məsələlərinin tənzimlənməsi üzrə mülkiyyətçinin və mülkün təhlükəsizliyinə görə məsuliyyət daşıyır. Onlara verilmiş səlahiyyətlər üzrə bir sıra xeyriyyəçilik tədbirləri görmək, yoxsulluğu müəyyən edərək, inzibati qaydada əməkdaşları bu işə cəlb edərək mülkün satışını, qiymətləndirilməsini, reyestrinin aparılmasını təmin etməkdir. Həmçinin məhkəmələrdə torpaq qiymətləndirməsinin təşkilini təmin etmək, seçkilər üzrə siyahıya alınmanı qaydaya salmaq, əsas olaraq əhali üzrə infeksiya riski aşkarlanmış, yoluxma riski yüksək olan xəstəliklərə görə peyvənd prosesinin aparılması, sosial rifahın təmini, cərimə və vergilərin tətbiq olunması, qanundankənar iş görən şəxslərə azadlıqdan məhrumetmə hüququnun verilməsi məqsədi üzrə işin məhkəməyə çıxarılması, hərbi mükəlləfiyyətin icrası və s. yerli özünüidarə etmə orqanlarının gördüyü işlərə misal göstərmək olar. Bələdiyyələrin gördüyü işlər üzrə məsuliyyəti

olduqca böyükdür. Bu səbəbdən vacib şəkildə daima inkişaf edərək iqtisadi-inzibati tərəflərini yüksəltməli idi.

Ancaq cəmiyyətin sosial rifahını artırmaq, şəhərlərarası sənaye inqilabının qarşısını almaq, demoqrafik partlayışdan, miqrant axınından irəli gələn səbəblərdən bütün bu amillər ortaya qoyulurdu. Yerli özünüidarə orqanlarının şəhərlər üzrə korporasiyaları da mövcud idi. Bu qanunların bütövlükdə icrası Çexiya dövlətində aparılırdı.

Yerli hökumət təşkilatları bölünürdü :

- mahal hakimiyyəti
- mahal şurası
- mahal meri

Yerli özünüidarə orqanlarının səlahiyyətləri tam və müstəsna hal daşıyır. Onlar, digər hakimiyyət orqanı, mərkəz yaxud regional orqan tərəfindən ancaq qanunla müəyyən edilmiş həddə mübahisələn yaxud məhdudiyyətlər qoya bilər.

Yerli özünüidarə orqanları onların səlahiyyətindən çıxarılmamış və başqa bir hakimiyyət orqanının səlahiyyətinə aid edilməmiş hər hansı məsələyə dair öz təşəbbüslərini reallaşdırmaq məqsədilə qanunla müəyyən olunmuş hüdudlarda tam sərbəstliyə malikdirlər (Səlimzadə M.İ.2010: s280).

Yerli özünüidarə iqtisadiyyatının regionda texniki istehsal potensialı və zəruri sayılan texnologiyalarla təmin olunması çox mühüm amillərindən hesab olunur. Bununla belə, resursların mövcudluğundan və istehsal infrastrukturunda olan peşəkar kadrlardan asılılığı istifadənin səmərəliliyi sayılır. Yerli özünü idarə edən təsərrüfatların ixtisaslaşmasında texniki özünütəminat çox vacibdir. Sektorun vəhdətindən və mövcud texniki imkanlardan, müxtəlif imkanlardan asılı olması əsas cəhətlərdəndir.

Hakimiyyətin müstəqil olaraq idarə olunması, iqtisadi baxımdan yüksəlişə gətirib çıxartdı. Çünki tibbin, bankların, sığorta təşkilatlarının, bokt-ların və kassa xidməti göstərən özəl müəssisələrin də payı burada əsas rol oynayırdı.

Səlahiyyətlərin tələbinə baxmayaraq, yoluxma riski yüksək xəstəliklər üçün səhiyyə sahəsində imkanlar olsa da, təchiz olunma baxımından şərait yaradılmırdı. Amma halbuki Moraviyanın da, Sileziyanın da buna dair bir qadağası belə yox idi.

O vaxtlar tarixə nəzər salsaq, Çexiyanın və Slovakiyanın yerli özünüidarə orqanları yüksək mövqedə durduğunu görə bilərik. Çünki onların hakimiyyəti suveren olaraq idarə olunurdu. Bu orqanların təşkil olunma prosesi o vaxtlar 2 cür aparılırdı :

- Dövlət məclisinin qurulması ilə,
- Dövlət şurasının təşkili ilə.

Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, inkişafı və tətbiqi əhaliyə yaxın olan hakimiyyət orqanlarının səlahiyyətlərinə həvalə olunmalıdır. Qeyd olunan səlahiyyətlərdən birinin başqa bir orqana verilməsi qarşıya qoyulmuş vəzifənin həcmi, xarakteri, həmçinin qənaət, səmərəlilik kimi tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Dövlət marşalı bu məclisin iştirakı ilə şuraya sədr qismində seçilirdi. Dövlət özünüidarə orqanlarının səlahiyyətlərinə iqtisadi islahatlar keçirmək, milli ehtiyatlara görə qərarların qəbulunun icrası, dövlət orqanlarının sistematikləşdirmək, büdcə və maliyyə hesabatlarını hazırlamaq və təsdiq etmək aiddir. Dövlət idarəçiliyi üzrə təyin edilmiş qanunlar Macarıstanın hissəsi olan Slovakiyada fərqli olaraq tətbiq olunurdu. Feodalizm dövründə siyasi yöndən idarəetmə qabiliyyəti məhz yerli idarə orqanı kimi bələdiyyələrin üzərinə düşürdü. 1867-ci ildə Avstriya və Macarıstan arasında tətbiq olunmuş güzəştlərdən dolayı çoxsaylı siyasi hakimiyyət qazanmış oldu.

Bələdiyyələri həmçinin ictimai təşkilatlara ( jupa yaxud qraflıq, stolice yaxud ofis), eləcə də bələdiyyə hüququnu almış şəhərlərə (başlıca olaraq paytaxt) bölürdülər. Seçki komitələri icra etdikləri proseslərə görə inzibati palatanı formalaşdırdılar. Bələdiyyələr tabe olduğu qurum Daxili İşlər Nazirliyidir.

Bundan əlavə olaraq, yerli özünüidarə edən orqanların inkişaf etməsi yönündə addımlar atılması ilə bərabər, vətəndaşların sosial rifahının artırılmasına xidmət göstərən cəmiyyətlər yarandı. Birinci Dünya Müharibəsində Avstriya və Macarıstanın

ayrılması nəticəsində Çexoslovakiya Respublikasının həmçinin fərqli dövlətlərin əsası qoyuldu. Bu respublikanın yaradılması nəticəsində fərqli bələdiyyələr və digər yerli idarəetmə orqanlarının da əsası qoyuldu.

28.10.1918 tarixində Çexoslovakiyanın müstəqilliyinin elan olunması nəticəsində bir sıra dövlət tənzimlənmələri aparıldı. Yenicə qəbul olunmuş qanunlara görə məsuliyyəti dövlət özü daşıyırdı. 121/1920 saylı qanuna müvafiq iqtisadiyyatda sənaye inqilabı dövrləri bələdiyyələr üzrə konstitusiya əsasında tənzimlənirdi.

Müxtəlif ölkələrdə yerli özünüidarənin iqtisadi əsasları aşağıdakı kimi müəyyən edilir:

•yerli özünüidarə mülkiyyəti;

•müxtəlif maliyyə resursları və yerli özünüidarə büdcəsi;

•dövlət mülkiyyətində olan, amma yerli özünüidarə orqanlarının tabeliyində olan əmlak;

•əhalinin ehtiyaclarına xidmət edən müxtəlif növ mülkiyyətlər.

Yerli özünüidarənin iqtisadi əsaslarını nəzər salsaq, ilk olaraq mülkiyyət anlayışının iqtisadi məzmununu izah etmək əhəmiyyətlidir. Mülkiyyətə iqtisadi kateqoriya kimi yanaşsaq demək olar ki, mülkiyyət anlayışında 3 əsas xüsusiyyəti nəzərə ala bilərik:

•mülkiyyət həmişə konkret məna və məzmuna malikdir;

•mülkiyyət adətən hər hansı ictimai forma vasitəsilə həyata keçirilir, yəni insanlar arasında mülkiyyət baxımından müəyyən ictimai münasibət kimi formalaşır;

•mülkiyyət münasibətlərinin mahiyyəti və əhəmiyyəti fiziki şəxslərin təbii obyektləridir .

Bələdiyyənin səlahiyyətləri nəzərə alınmaqla yerli özünüidarəetmə orqanlarının fəaliyyət prosesi və inkişafı ilə bağlı funksiyaları ayırmaq olar.

•Bələdiyyə dairəsinin kompleks inkişafının təmin olunması;

•Əhalinin müdafiəsinin təmin edilməsi;

- Yerli problemlərin həlli zamanı əhalinin iştirakı;
- Bələdiyyə mülkiyyətinin idarə edilməsi üçün tələb olunan maliyyə resursları;
- Yerli hökumətin hüquqlarının təmin edilməsi;
- İnsanların ehtiyaclarının sosial baxımdan nəzərə alınmasını təmin etmək.

Bazar araşdırması apardıqda müxtəlif ölkələrin inkişaf və problemlərin həlli yollarının tapılması istiqamətində tədbirlər planı hazırladığını müşahidə etmiş olduq. Hazırda Türkiyənin bu yöndə yeni planları cari 5 ili əhatə edir, hansı ki bu vaxt ərzində ortaya çıxan problemlər aradan qaldırılaraq, qarşıya qoyulmuş inkişafyönlü məqsədlərə nail olur. Burada təhlil hesabatları məhz ekpertiza rəyi əsasında təsdiq olunur.

Bu sayədə Onuncu İnkişaf Planı YÖİ orqanlarının ekspertləri tərəfindən hesabat üzrə onların problemləri üzrə fəaliyyət istiqamətləri təyin edilmiş və həlli istiqamətləri ortaya qoyulmuşdur. Keçmiş dövrlə cari dövrün müqayisəli təhlilindən yola çıxaraq, reallaşması mümkün olmayan siyasi planlar və cari struktur məsələləri bu hesabat sayəsində düzəldilməsi əsas hədəflərdən biridir. Yerli idarəçilik orqanları fəaliyyət rejimlərini məqsəd və vəzifə öhdəliklərinə görə irəli sürdükləri təkliflərin əsasında icra edirlər. Hədəf strategiyaları və həll istiqamətləri planlı şəkildə hazırlanır.

Ölkəmiz üzrə yerli özünüidarəetmə proseslərini icra edən bələdiyyələrdir. Məhz Azərbaycan Respublikasının hüdudlarında bələdiyyə orqanlarının əsasının qoyulması, normativ – hüquqi əsaslarının təsdiqi ölkəmizin öndər lideri H.Ə.Əliyev tərəfindən olmuşdur. Ölkə üzrə bələdiyyələrə verilən hüquqların qüvvəyə minməsini də, o təsdiq etmişdir. Bələdiyyələrin hüqunu təsdiq edən normativ aktlar və qanunlar AR. Konstitusiyasında əks olunmuşdur. 1999-cu ilin dekabr ayı üzrə bələdiyyə seçkilərinin təşkili birinci dəfə olaraq təşkil olunmuşdur.

Bələdiyyə hüquqlarının təsdiq olunması bu tarixdən etibarən başlaması nəticəsində leqal şəkildə bütün hüquqlar tənzimlənirdi. Burada hüquqlarından söz açdıqda, nəzərdə tutduğumuz məqam onun hansı şəraitdə fəaliyyət göstərməsi və sosial statusu idi.

Ölkə üzrə yerli özünüidarə orqanlarının hüquq sisteminin formalaşdırılması prinsipinin əsasında iştirak payı Milli Məclisin üzərinə düşür, çünki burada onlar lazımi hüquq normalarını müəyyənləşdirərək, qüvvəyə minməsini təmin edirlər. Məhz bu normativ-hüquqi aktlar çərçivəsində yerli özünüidarə orqanları öz fəaliyyətlərini icra və genişləndirmə proseslərini təmin edirlər. Qüvvəyə minmiş qanunlar üzrə vacib məqamlar kimi ölkəmizin büdcə siyasətini tənzimləmək, təsdiqləmək və fəaliyyət prosesini həyata keçirərək, dövlətə olunan vergi borclarının və digər ödəniş məbləğlərinin ödənilməsi, eləcə də iqtisadi və ekoloji planların hazırlanaraq istifadəyə verilməsi, mülk prosedurlarının yaradılması, torpaq sahələrinin sahiblik hüquqlarının qorunması və s. göstərmək olar. Ölkəmizdə bələdiyyələrin fəaliyyət rejimi müstəqil olaraq adlandırılsa da, daha çox nəzarət rejimində işlərin icrası aparıldığı hər kəsə aydındır. Çünki yerli özünüidarə orqanları ölkə vətəndaşlarının və dövlətin önündə aldığı məsuliyyət böyük önəm kəsb edir. Bələdiyyələrin birbaşa olaraq cavabdeh olduğu vacib nüanslardan biri də məhz sosial-iqtisadi çərçivədə mövcud olan problemlərdir.

Ölkəmiz müstəmləkəçilikdən qurtulduqdan sonra ərazilər üzrə bir sıra iqtisadi sferalarda və inzibati qaydada islahatların təşkili prosesi olduqca artdı. Avropa ölkələrinə yaxınlaşma, məhz Şərq blokundan ayrılmaqla başladı. Artan əlaqələrin müsbət cəhəti hüquqi bazaya da birbaşa təsir göstərirdi. Çünki SSRİ dövründə ölkəmizin bələdiyyələr üzrə büdcə siyasəti hüquqi qaydada icra olunurdu.

Keçirilmiş islahatlar zamanı ölkəmizin Avropanın yerli özünüidarə orqanlarının xartiyasını göz önündə tutaraq, məsələlərə baxması, iqtisadi baxımdan yüksəlişə səbəb oldu. Respublikada yerli idarə orqanları kimi bələdiyyələri, icra hakimiyyətlərini misal göstərmək olar. Ölkədə xərcin gəliri üstələməsi iqtisadi baxımdan keçid dövrü üzrə normal hal kimi qəbul olunur.

Ölkəmizdən başqa, beynəlxalq aləmdə də yerli idarəetmə orqanlar da mövcud olduğunu nəzərə alaraq, onların tarixi və inkişaf prosesində müxtəlif olduğunu görürük. Qlobal miqyasda Avropa üzrə inteqrasiya prosesləri zamanı bələdiyyələrin,

icra orqanlarının fəaliyyəti də digər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə demək olar ki eyni şəkildə gedir. Əsas prinsip dövlətin yerli özünü idarə orqanlarının fəaliyyətini məcburi şəkildə Avropa qanunları çərçivəsində aparmaqdır. 1985-ci ildə aparılmış islahatlara görə Avropa ölkələrinin dövlət və yerli özünüidarə orqanları üzrə dünəndən bugünə qəbul olunmuş qərarlar, normativ-hüquqi aktlar arasında hədsiz sayda müxtəliflik olduğu nəzərə çarpır. Bu onlara verilmiş səlahiyyətlərə də birbaşa təsirini göstərir. Dövlətin idarə olunması zamanı onun demokratikliyini təmin etmək, qeyri-millətlərdən ibarət olması yönündə həmçinin, subsidiar və birbaşa mərkəzdən idarə olunması istiqamətin addımlar atılması üçün islahatların təşkili aparılır (https://repository.mruni.eu/bitstream/handle/007/16179/Kostytsky.pdf?sequence=1&isAllowed=y).

## 1.1.Dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyət istiqamətlərinin nəzəri və metodoloji əsasları

Yerli özünüidarə etmə orqanları çoxşaxəli sosial və siyasi məsələləri birləşdirir. Nəzəri təriflər və ya mülahizələrlə nəticə çıxarmaq asan deyil.Yerli idarəetmə orqanlarının fəaliyyət rejimi öndə tutulmaqla tədqiqat prosesinin aparılması və siyasi baxımdan münasibətlərin tənzimlənməsinə dair təhlil və tədqiq aparılır. Bu sferaların yerli idarəetmə orqanlarında cəmləşməsi daha çox maraq kəsb edir. Ona görə də mərkəzləşmə siyasəti önəm kəsb edir və bu baxımdan fərqli fikirlər irəli sürülmüşdür.

Bələdiyyə termini ilk dəfə 1789-cu ildə Fransanın Təsis şurasında istifadə edilmişdir. Bu gün istifadə edilən "bələdiyyə" anlayışı Qədim Roma mənşəlidir və "municipe" sözündən-imperiyaya yeni birləşdirilən torpaqlar, qaynaqlanır. 1835-ci ildən etibarən Britaniyada bələdiyyə hüquqi şəxs kimi inkişaf etmişdir. Yerli özünüidarəetməyə dair müasir baxışın əsası XIX əsrin alimlərinin əsərlərindən irəli sürülən nəzəri idealar təşkil edir. Maraqlı cəhət budur ki, bu fikirlər arasında əsaslı fərqlər mövcuddur. Bəzi alimlər yerli özünüidarəetməni dövlətdən asılı olan və onun ümumi siyasi siyasətinə uyğun olaraq əhaliyə xidmət göstərən dövlət idaəetməsinin əks mərkəzləşmiş forması hesab edirlər (İbrahimov İ.2018:s.384).

Burada əsas prinsip dövlətin yerli özünü idarə orqanlarının fəaliyyətini məcburi şəkildə Avropa qanunları çərçivəsində aparmaqdır. 1985-ci ildə aparılmış islahatlara görə Avropa ölkələrinin dövlət və yerli özünüidarə orqanları üzrə dünəndən bugünə qəbul olunmuş qərarlar, normativ-hüquqi aktlar arasında hədsiz sayda müxtəliflik olduğu nəzərə çarpır. Bu onlara verilmiş səlahiyyətlərə də birbaşa təsirini göstərir (Ökmən M:2013.s.200).

Ölkə üzrə yerli idarəetmə orqanlarının fəaliyyət rejimi öndə tutulmaqla tədqiqat prosesinin aparılması və lokallaşdırma siyasətinin icrası nəzəri-hüquqi baxımdan, təşkilatçılıq yönündən və siyasi baxımdan münasibətlərin tənzimlənməsinə dair təhlil və tədqiq aparılır. Bu sferaların yerli idarəetmə orqanlarında cəmləşməsi daha çox maraq kəsb edir. Ona görə də mərkəzləşmə siyasəti önəm kəsb edir və bu baxımdan fərqli fikirlər irəli sürülmüşdür.

Yerli özünüidarə etmə orqanlarının iş prinsipləri, funksionallığı, normativlərinin təsdiqi prosedurları nəzəri-metodoloji baxımdan əhəmiyyət kəsb edir. Demokratik hüquqi dövlət quruculuğunda, ölkə iqtisadiyyatının və sosial həyatının dinamik inkişafında, sabit sosial mühitdə yerli özünüidarəetmə orqanlarının müsbət rolu tam əsaslandırıla bilər. Ölkənin sərhədləri çərçivəsində vətəndaş cəmiyyətinin formalaşmasına təsir göstərdiyi üçün sosial istiqamətlər önəm daşıyır.

Yerli özünüidarə - yerli özünüidarə orqanlarının qanunvericiliyə uyğun fəaliyyət göstərərək və öz üzərinə məsuliyyət götürərək ictimai işlərin böyük hissəsini tənzimləyərək yerli əhalinin mənafeyinə uyğun idarə etmək hüququ və real imkanları deməkdir.

Yerli idarəetməni ifadə etmək, onun yerini xalqın idarə olunmasındakı rolunu bilmək üçün ilk növbədə özünüidarənin əsaslarını öyrənmək lazımdır. Yerli özünüidarəetmə sisteminin qurulmasının əhəmiyyəti vətəndaş cəmiyyətinin yerli demokratiyasının inkişafı yolu üçün birbaşa kömək edir. Yəni, bu, müasir demokratiyanın əsasını formalaşdırmağa təzahür yaradır ki, bu da demokratiyanın necə təsis olunması və cəmiyyətin formalaşmasında demokratiya dövrünü yaşayan

vətəndaşlarımız üçün olduqca mühim əhəmiyyət kəsb edir. Ölkəmizdən savayı, beynəlxalq miqyasda da yerli idarəetmə orqanları da fəaliyyət göstərdiyini nəzərə alaraq, onun tarixi və inkişaf tendensiyalarını müəyyən etməyə çalışaq. Bildiyimiz kimi bələdiyyələr siyasi baxımdan sistemləşdirilməsi o qədər də sürətli getməmişdir. Burada məsələ birtərəfli olmadığından, siyasi, sosial, iqtisadi və təşkilatçılıq amilləri də əsas yer tutur. Yerli idarəetmə və dövlət orqanlarını bütövlükdə təhlil etmək üçün nəzarət funksiyası qanunauyğun şəkildə təşkil olunur. Ədəbiyyatlarda onlar arasında baş vermiş sadaladığımız sferalar üzrə problemli məsələlər və onların həlli istiqamətləri barədə geniş şərh demək olar ki mövcud deyil. Çox vaxt bu problemlərə siyasi və sosialyönümlü baxılsa da, əfsuslar olsun ki baxış bucağı həmişə eyni olmur. Misal üçün yerli özünüidarə etmə orqanlarını nəzəri baxımdan ətraflı şəkildə analiz edən tədqiqat nümunələri yaxud üsulları yox səviyyəsindədir. Amma xarici ədəbiyyatlara nəzər salsaq görərik ki məlumat sayı və tədqiqat işi bu sferada olduqca yüksəkdir. Məhz çox vaxt bu səbəbdən müqayisəli təhlil apararaq məsələlərin həlli yolu təcrübi olaraq tapılır.

Nəzəri baxımdan ölkə üzrə qeyri-mərkəzləşdirmə prosedurlarının inkişafı istiqamətində və yerli özünüidarə orqanlarının inkişaf tempində baş vermiş məsələlərlə bağlı məlumat yetərsizliyinin olması, tədqiqatın bu sahədə az aparılması ilə birbaşa bağlıdır.

Orta əsrlər Avropada icma hakimiyyətinin yaradılması və onun dövlət hakimiyyəti ilə əlaqəsi haqqında fikirlər artmağa başladı. İcma hakimiyyətinin inkişafı bilavasitə şəhər əhalisinin səyləri ilə bağlı idi. Burada ticarət və sənaye maliyyəsi formalaşmağa başladığı və feodalların təsirindən qurtulmaq, mülkədarların nəzarətindən çıxmaq üçün çalışırdı. Buna uyğun olaraq, hökumətdə icmanın ölçüsü ilə bağlı fikirlər yaranmağa başlayır. Beləliklə, icma hökumətdən əvvəl yarandı (İbrahimov İ. 2014: s.336)

Demokratiyanın əsas elementlərindən biri hesab edilən yerli özünüidarənin yaradılması uzun tarixə malikdir. Yerli özünüidarənin tarixi kökləri dünya xalqlarının

ümumi maraqlarına aid olan problemlərin həlli ənənəsi ilə bağlıdır. Uzun illər Avropada ictimai, siyasi və iqtisadi hakimiyyət iki təbəqənin, ruhanilərin və zadəganların əlində cəmləşmişdi. Şəhərlərin yaranması və ticarətin inkişafı ilə formalaşan kommuna strukturları, ümumi xidmət ehtiyaclarını ödəmək üçün padşahlardan aldıqları imtiyazlarla yerli idarəetmənin əsasını qoydular. Vaxt keçdikcə kommuna idarələrinin gücünü itirməsi və mərkəzləşmiş milli dövlətlərin güc qazanması ilə yerli idarəetmələrin zəruriliyi müzakirə edilmiş və müxtəlif mütəfəkkirlər tərəfindən fərqli fikirlər irəli sürülmüşdür. J.J. Russo və İ.Kant şəhər və dövlət arasında yerli idarəetmə kimi ara qurumların girməsinin vacib olmadığını iddia edərkən, A.R.J.Turqot və C.Bentham dövlətlərin ümumi maraqları ilə fərdi maraqlar arasında körpü kimi düzgün şəkildə alt bölmələrin formalaşdırılmasının zəruriliyini müdafiə edirdilər Səlimzadə

Müasir hüquq ədəbiyyatında ən çox xatırlanan "müstəqil hökumət", "həvəskar hökumət" kimi fikirlər "azad icma" nəzəriyyəsinə əsasən qaynaqlanır. Bu nəzəriyyəyə əsasən, icmalar müstəqildir, dövlət tərəfindən qurulmur. Nəticədə icmalar öz vəzifələrini müstəqil şəkildə həyata keçirmək səlahiyyətinə malikdirlər. İcmaların təbii hüquqlarına əsaslanan "azad icma" nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, insan hüquqlarına münasibətdə özünüidarə sosial azadlığın nəticəsidir.

Nəzəriyyədə demokratiyanın və bütövlükdə nümayəndəli idarəetmə formalarının, o cümlədən etnik azlıqların seçki hüququnun, yerli özünüidarəetmə orqanlarının seçilmə qaydalarının, dövlət orqanlarının icma səlahiyyətlərinə mane olmağının uyğunsuzluğu və s. xüsusiyyətləri də ifadə olunur.

Yerli özünüidarənin başqa bir nəzəriyyəsi "sosial xidmət" nəzəriyyəsi və ya "ümumrifah dövlət" nəzəriyyəsidir. Bu nəzəriyyələrin ümumi mənası ondan ibarətdir ki, dövlət xidmətlərinin təşkili, şəhər xidmətlərinin inkişafı mexanizmləri mövcuddur. Yerli hökumətlər iri sahibkarların maraqlarını təşviq etməklə sosial inkişafı təşviq edirlər. Odur ki, sahibkarlığın inkişafı müəyyən iqtisadi səlahiyyətlər, o cümlədən maliyyə, vergi və investisiya stimulları tələb edir. Belə olan halda şəhər rəhbərliyi

yerli əhalinin rifahının yaxşılaşdırılması, sosial-iqtisadi, mədəni və s. problemlərin həlli yollarını təqdim edir (https://www.elibrary.az/docs/jurnal/jrn2014_649.pdf).

XIX əsrdən etibarən plüralist demokratiya nəzəriyyəsinə dair irəli sürülmüş fikirlərə əsasən mərkəzləşdirilmə prosesi dövlət və yerli orqanlarda böyük önəm kəsb edirdi. Tədqiqat prosesini aparan elmi işçilər antimərkəzləşdirmə islahatına əsasən yerli idarəetmə orqanlarının vacibliyini bildirdilər. Tədqiqatçıların fikrincə ancaq yerli idarəetmə orqanları öz taleyini bərqərar edə bilirlər. Onların məqsədi yalnızca şəxsi azadlıqları və mənafelərini anlamaq üçün yardım göstərən siyasi əhəmiyyətli təşkilat yox, həmçinin fərdi kimliyini təsdiq edən vasitə qismində çıxış edirdilər. Yerli özünüidarə etmə orqanları demokratiklik yönündə inkişaf tempinə təsir göstərir və bu zaman modern dövrün tələblərinə cavab verən demokratiklik hökm sürür. Bu zaman istənilən azlığın özünü həyata keçirmə imkanları yaranır.

İnsan hüquq və əsas azadlıqlarının müdafiəsində nəzəri göstərişlərin düzgün seçilməsi və müvafiq qanunvericilik bazasının yaradılması, dövlətçiliyin möhkəmləndirilməsi zərurəti ilə bütün sahələrdə həqiqi yerli özünüidarəetmə sisteminin yaradılması; səmərəli yerli özünüidarəyə əsaslanan regional siyasətin işlənib hazırlanmasında ölkədə bazar münasibətlərinin inkişafında əhəmiyyət kəsb edir

**Əks antimərkəzləşdirmə :**

- dövlətin siyasətidir;
- cəmiyyətin inkişafıyla bağlıdır;
- cəmiyyəti idarəetmə prosesinə yaxınlaşdıran alət.

Bu nəzəriyyələrin təhlilindən belə bir nəticəyə gəlmək olar ki, "ümumi rifah dövləti" və "azad icma" nəzəriyyələri şəhər hakimiyyət orqanlarının özünüidarəetmə hüququnun daha geniş şəkildə qəbul edilməsi baxımından ümumi nəzərdən keçirilməlidir. "Azad icma" nəzəriyyəsi mövcud yerli əhali ilə dövlət, o cümlədən müxtəlif etnik qruplar arasında birbaşa hakimiyyət bölgüsünə əsaslanan bir növ razılaşmanın nəticəsidir. Bu halda aşağıdan yuxarıya doğru yaradılması prosesi baş

verir. “Ümumi rifah dövləti” nəzəriyyəsi vətəndaş cəmiyyətinin yaranması və onun mənşəyi, dili, dini, sosial və s. şəraitdən asılı olmayaraq hamı üçün bərabərliyə əsaslanan idarəetmə sistemi deməkdir (Yusifov S., İsmayılov V. və Hüseyn A.2016:205 s.).

XXI əsrdə meydana çıxan və Qərbi Avropada öz müqəddəratını təyinetmənin bərqərar olmasına bilavasitə təsir edən doktrinalardan biri də sosial xidmət nəzəriyyəsi idi. Nəzəriyyəyə görə, bələdiyyələrin qarşısında duran ən mühüm vəzifələrdən biri şəhərdə yaşayan insanlara yardım göstərməkdir. Şəhərin əsas məqsədi insanların həyatını yaxşılaşdırmağa kömək etməkdir. Yerli özünüidarəetmə təşkilatların bu funksiyanı səmərəli şəkildə yerinə yetirməsi üçün əsas tələb resursların və yüksək keyfiyyətli bacarıqların mövcudluğu, habelə adekvat dövlət dəstəyinin təmin edilməsidir.

Müasir ədəbiyyatda qeyd olunur ki, yerli özünüidarəetmə ərazi kollegiyalarına konkret məsələlərin həlli üçün öz maliyyə məhsullarından və resurslarından müstəqil istifadə etməyə imkan verən insan idarəçiliyinin formasıdır ki, bu da ərazi məclisi üzvlərinin ümumi mənafelərini qaydada və hüquqlarda əks etdirir .

Dövlət hakimiyyətinin fərqli qolu olan yerli özünüidarə müvafiq dualizmlərin vasitəsilə müəyyən olunur. Digər baxımdan hüquqi nöqteyi-nəzərdən yerli idarəetmə orqanları təyin olunmuş sahə üzrə baxış keçirərək, onun idarəolunması prosesini icra edirlər. Burada əsas missiyanı bu orqanların vəzifəli və aidiyatı şəxsləri, onlara təhkim olunmuş qəsəbələrə, kəndlərə, şəhərlərə hüquq çərçivəsində dövlət nəzarətini bilavasitə həyata keçirirlər. Yəni burada yerli idarəetmə orqanları dövlətin tabeliyində olmasa belə, dövlətin verdiyi səlahiyyətdən istifadə hüquqlarına malikdir.

Yerli özünü idarəetmənin dövlət nəzəriyyəsinin ilkin fikirlər alman hüquqşünasları Lourens Ştayn və Rudolf Qnayst tərəfindən formalaşmışdır. Sonralar nəzəriyyə inqilaba qədər bütün Rusiyaya yayıldı və görkəmli rus hüquqşünasları N.İ.Lazarevski, A.D.Qradovski, V.P.Bezabrazov tərəfindən işlənib hazırlanmışdır.

Əslində tarixi təcrübə göstərir ki, yerli özünüidarəetmənin müstəqilliyi onların

nəzəri cəhətdən dövlət orqanları sisteminə daxil edilməməsi, dövlət orqanları qarşısında məsuliyyət daşıyıb hesabat verməməsi ilə deyil, bələdiyyələr üçün dövlət

tərəfindən hakimiyyət səlahiyyətlərinin tanınması və onların öz funksiyalarını həyata

keçirməsi üçün yetərincə maddi-maliyyə vəsaitlərinə malik olması ilə şərtlənir.

Bu nəzəriyyəyə görə, yerli idarəetmə bir növ yerli hökumət qurumudur. Bütün dövlət hakimiyyəti dövlətə məxsusdur və bu hakimiyyətin mənbəyi dövlət hakimiyyətidir. Bununla belə, mərkəzi hökumətdən fərqli olaraq, yerli idarəetmə orqanlarının özü dövlət məmurları tərəfindən deyil, hökumətdə xüsusi maraqları olan insanlar tərəfindən təyin olunan agentlər tərəfindən həyata keçirilir.

Dövlət nəzəriyyəsinə görə, muxtar təşkilatlar tərəfindən sərbəst şəkildə həll edilən yerli məsələlər hakimiyyət və onların mədəniyyət məsələlərindən heç bir fərqi yoxdur. Nəzəriyyəyə görə, bir sıra dövlət idarəçiliyinin yerli idarəetməyə verilməsində əsas məqsəd kompleks həllin həyata keçiril Bununla belə, qeyd etmək lazımdır ki, muxtariyyət doktrinasının məzmunu Avropa ölkələrində qanunların formalaşmasında mühüm rol oynamışdır və hazırda Avropa Yerli Özünüidarəetmə Xartiyasının çox hissəsi bu nəzəriyyəyə əsaslanır.

Bildiyimiz kimi bələdiyyələr siyasi baxımdan sistemləşdirilməsi o qədər də sürətli getməmişdir. Burada məsələ birtərəfli olmadığından, siyasi, sosial, iqtisadi və təşkilatçılıq amilləri də əsas yer tutur. Yerli idarəetmə və dövlət orqanlarını bütövlükdə təhlil etmək üçün nəzarət funksiyası qanunauyğun şəkildə təşkil olunur. Ədəbiyyatlarda onlar arasında baş vermiş sadaladığımız sferalar üzrə problemli məsələlər və onların həlli istiqamətləri barədə geniş şərh demək olar ki mövcud deyil. Çox vaxt bu problemlərə siyasi və sosialyönümlü baxılsa da, əfsuslar olsun ki baxış bucağı həmişə eyni olmur. Misal üçün yerli özünüidarə etmə orqanlarını nəzəri baxımdan ətraflı şəkildə analiz edən tədqiqat nümunələri yaxud üsulları yox səviyyəsindədir. Amma xarici ədəbiyyatlara nəzər salsaq görərik ki məlumat sayı və

tədqiqat işi bu sferada olduqca yüksəkdir. Məhz çox vaxt bu səbəbdən müqayisəli təhlil apararaq məsələlərin həlli yolu təcrübi olaraq tapılır.

Çox vaxt yerli muxtariyyət tarixi keçmişdən, adət-ənənələrdən və sosial normalardan asılı olaraq ölkədən ölkəyə dəyişdiyi kimi, bu şərtləri nəzərə alan müxtəlif perspektivlər var. Azərbaycan Respublikasında həll yolu "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq insan hüquqları nəzəriyyəsi və dövlət siyasətinin prinsiplərindən ibarətdir.

Yerli özünüidarəetmənin iqtisadi məzmunu ilə bağlı müxtəlif dövrlərdə fikirlər söylənmişdir. Bunu onun nəzəriyyəsinə nəzər yetirdikdə görə bilirik. Belə ki, yerli hakimiyyət orqanlarının səlahiyyətləri əhalinin fəaliyyətlərinin öz maraqlarına uyğun şəkildə istiqamətləndirilməsinə gətirib çıxarır. Bir çox inkişaf etmiş ölkələrdə yerli özünüidarə konstitusiya quruluşunun əsası hesab olunur. Belə olduğu halda onun orqanları dövlət idarəçiliyi mexanizminin tərkib hissəsi hesab edilir. Yerli özünüidarə ilə dövlət hakimiyyəti arasında əlaqə yaradılır və inkişaf etdirilir (Yusifov S., İsmayılov V. və Hüseyn A.2016:205 s.).

Digər formada tətbiq edilən bütün nəzəriyyələr konkret siyasi məqsədlər üçün yaradılmış və inkişaf etdirilmiş, ancaq bəziləri cəmiyyətin tələblərinə cavab verə bilmədiyi üçün elmi və şərti məzmundan məhrum olmuşdur. İnsan hüquq və əsas azadlıqlarının müdafiəsində nəzəri göstərişlərin düzgün seçilməsi və müvafiq qanunvericilik bazasının yaradılması, dövlətçiliyin möhkəmləndirilməsi məcburiyyəti ilə bütün sahələrdə həqiqi yerli özünüidarəetmə sisteminin yaradılması; səmərəli yerli özünüidarəyə əsaslanan regional siyasətin işlənib hazırlanmasında bazar münasibətlərinin cəmiyyətdə inkişafında əhəmiyyət kəsb edir

Xüsusilə yerli özünü idarəetmə və dövlət strukturlarında dövlət idarəçiliyi arasında aydın fərq qoymağa çalışan bütün nəzəriyyərlər eyni nəticəyə gəlməyə çalışır: yerli özünüidarəetmə orqanlarının dövlət strukturlarına münasibətdə öz müqəddəratını təyin etməyə zəmanət verən başqa bir əlamət olmalıdır.

# II FƏSİL.AZƏRBAYCANDA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

## 2.1. Azərbaycanda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili prinsipləri

Yerli özünüidarənin qədim tarixi kökləri bütün dünya xalqlarını səciyyələndirən məsələlərin həlli xüsusiyyətlərinə əsaslanır. XIX əsrdə aparılan bələdiyyə islahatları çox böyük əhəmiyyət daşıyır. Belə ki, dünyanın inkişaf etmiş ölkələrində yerli özünüidarəetmə sistemləri XIX əsrdə aparılan bələdiyyə islahatlarına uyğun şəkildə tənzimlənir. Bunlarınınkişafı və formalaşması feodal cəmiyyətindən sənayeləşmiş cəmiyyətə keçidlə bağlı olmuşdur. Yerli burjuaziya iddiaları hələ də orta əsrlərdə yerli problemlərin həllində mərkəzi hakimiyyətin müdaxiləsi və nəzarətindən müəyyən qədər müstəqillik qazanmış şəhərlər tərəfindən irəli sürülür. Yerli özünüidarəetmə o zaman tacir gildiyaları (tacirləri təhlükədən qorumaq və səmərəli əməkdaşlıq yaradılan birliklər) əsasında qurulmuşdur. Bu qurumların rəhbərləri şəhər kommunalarının ağaları (merləri) kimi inzibati, maliyyə və hüquqi mübahisələrin həllində öz sözünü deməyə qadir idilər.

Yerli özünüidarəetməyə dair müasir baxış öz əksini XIX əsr alimlərinin əsərlərində idarəçilik haqqında irəli sürülmüş nəzəri fikirlər və ideyalarda tapmışdır. Belə ki, bu baxışların bir-birindən ciddi şəkildə fərqləndiyini qeyd etməliyik. Yerli özünüidarəni dövlətin tabeliyində olan, milli standartlara və mərkəzi hakimiyyətin siyasi istiqamətininin xüsusiyyətlərinə uyğun şəkildə əhaliyə xidmət edən mərkəzləşdirilməmiş idarəetmə forması nəzərdə tuturlar. Bəzi alim və mütəfəkkirlər isə icmanın yerli özünüidarəetmə konsepsiyasını nəzərə alaraq, yerli özünüidarələrin müstəqilliyini müdafiə edirlər. Digər alimlər icmanın yerli özünüidarəetmə konsepsiyasına sadiq qalaraq yerli özünüidarələrin müstəqilliyini müdafiə edirlər. Bu müstəqillik öz təsdiqini bu qurumların birbaşa olaraq xalq tərəfindən və ya onların iştirakı ilə formalaşdırılması azadlığında tapır. Sərbəstliyi səciyyələndirən amil yerli

özünüidarəetmə orqanlarının şəxsi maliyyə resurslarına və hüquqi səlahiyyətlərinə (hüquqi şəxs kimi müqavilələr bağlamaq və məhkəmə çəkişmələrinə) malik olmasıdır (Yusifov S,İsmayılov V,Hüseyn A,2016: s12)

Özünüidarələrin müstəqilliyinin formalaşdırılması azadlığı öz əksini xalq tərəfindən və ya onların iştirakı sayəsində qurumların fəaliyyətində tapır. Yerli özünüidarəetmə orqanlarının şəxsi maliyyə resurslarına və hüquqi səlahiyyətlərinə (hüquqi şəxs olaraq müqavilələr bağlamaq və məhkəmə çəkişmələrinə) malik olması sərbəstliyi səciyyələndirən amillərdəndir.

Dövlət yerli özünüidarənin tərkib hissəsi olan yerli özünüidarələrə müxtəlif üsullarla təsir etməkdədir. Lakin yerli özünüidarəni dövlət daxilində dövlət kimi təsəvvür etmək düzgün deyil, o, yalnız qeyri-hökumət qurumlarına deyil, bütövlükdə yerli məsələlərin həllinin təşkilinə tətbiq edilən təcrübə forması kimi anlaşılır.

Müəyyən dövrdən sonra bu idarəetmə dəyişdi. Zaman keçdikcə dövlət hakimiyyətinin səlahiyyətləri və hökmranlığının zəifləməsi şəhərlərin təsərrüfat işlərini idarə etməkdə bir çox müstəqillik verdi. Şəhərlər zamanla öz hüquqi statuslarını inkişaf etdirərək möhkəmləndirdilər və icma mülkiyyətinə sərbəst sərəncam vermək səlahiyyəti əldə etdilər. XVIII əsr Böyük Fransa İnqilabı yerli özünüidarə konsepsiyasının meydana gəlməsindən xüsusi rol oynamışdır. Bu inqilab iqtisadiyyat və dövlət haqqında liberal fikirlərin yaranması və inkişafınaböyük təsir etmişdir. Cəmiyyətdə liberal düşüncə və meyllərin formalaşdırılması elmi fikirlərin inkişafında mühüm rol oynadı. Bu dövrlərdə yerli özünüidarənin inkişafı və formalaşması eyni zamanda elmi ictimaiyyətin daima əsas məsələlərindən biri olmuşdur.

Məlum olduğu kimi, yerli özünüidarəetmə Azərbaycan Respublikası tərəfindən 12 noyabr 1999-ci il referendum yolu ilə qəbul edilmiş, Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü hissəsində öz əksini tapmışdır. Ümumiyyətlə, hər zaman idarəetmə və özünüidarəetmə prinsipləri və xüsusiyyətləri mövcud olmuşdur.

Nəzərə alsaq ki, Sovet dövründə Azərbaycan Respublikasında yerli özünüidarə adlanan sistem yerli və ümummilli problemlərin həllində prosesində vətəndaşların iştirakına əsaslanan, yerli sovetlər və xalq deputatlarının icra orqanları ilə idarə olunan idarəetmə sistemindən təşkil edirdi, görərik ki, bu sistem öz mahiyyətinə, hüquq və səlahiyyətlərinə, cəmiyyətdə ümumi inkişaf səmərəliliyinə görə daha çox dövlət orqanı, demokratik mərkəzçilik prinsipinə əsasən yuxarı dövlət orqanlarına tabe edilən qeyri-müstəqil hökumət sistemi idi.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra inkişaf etmiş ölkələrin təcrübəsinə və ümumbəşəri dəyərlərə əsaslanan dünyəvi-demokratik, hüquqi dövlət quruculuğunu əsas məqsəd kimi qəbul etmişdir. Bu məqsədə çatmaq üçün cəmiyyətdə əsaslı və hərtərəfli islahatların aparılması zəruri şərtlərdən idi.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev yerli özünüidarəetmə mövzusunda çıxış edərkən, bu strukturun ölkəmizdə gedən demokratik prosesin mühüm tərkib hissəsi olduğunu vurğulayıb. Səlahiyyətli, müstəqil özünüidarəetmə orqanları demokratiyanın inkişafının ilkin şərti olmaqla yanaşı, vətəndaşların dövləti idarə etmələri üçün imkanların yaradılmasının göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin demokratik, sosial-iqtisadi inkişafı istiqamətində gördüyü davamlı, məqsədyönlü işlər vətəndaş cəmiyyətinin mühüm elementidir.

1995-ci ildə keçirilən referendumla müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətin ali hüquqi və iqtisadi sistemini, yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən Konstitusiyada öz hüquqi ifadəsini tapdı. Konstitusiya yerli özünüidarənin bələdiyyə işinin təşkilini, bələdiyyə qanunlarını hərtərəfli nəzərdən keçirməklə, bələdiyyələrin müstəqilliyinin təmin olunması ilə əsaslandırır.

Ölkənin əsas qanununun keçid qərarlarında Konstitusiyanın qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Yerli Nümayəndələr Məclisinin səlahiyyətləri yerli icra hakimiyyəti orqanlarına verildiyi qeyd olunub. Konstitusiyanın keçid müddəaları

Konstitusiyanın qüvvəyə mindiyi gündən iki il ərzində yerli özünüidarəetmə və bələdiyyə seçkiləri haqqında qanunun qəbul edilməsini tələb edir.

Qanun layihələrinin Milli Məclisdə hərtərəfli müzakirəsindən sonra Azərbaycan Respublikası “2020-ci ildə Bələdiyyələrin statusu haqqında” qanunu qəbul olunub (https://e-qanun.az/framework/4770).

AR. 698-IQ nömrəli “Bələdiyyələrin statusu haqqında” qanununa görə din, cins, irq, əqidə,vəzifəsi və siyasi partiya adiyatı olmadan hər kəs müstəqil şəkildə yerli idarəçilik edə bilər, yaxud nümayəndə qismində fəaliyyət göstərə bilər.(https://e-qanun.az/framework/4770) Həmçinin AR vətəndaşları bu orqanlar üzrə seçim hüququ vardır. Hər bir vətəndaş üçün qanun eyni dərəcədə keçərlidir. Vətəndaşın hüququdur ki, öz ölkəsində fəaliyyət göstərən YÖİ orqanlarına və səlahiyyətli şəxslərə qanunla müəyyən olunmuş qaydada müraciət etsin (İbrahimov İ. 2014:s336).

Bu qanunun özünüidarəetmə sistemində tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1999-cu il iyulun 2-də fərmanı verilmişdir. Bu ildə keçirilən bələdiyyə seçkiləri zamanı ölkədə özünüidarə sistemi ilə bağlı lazımi hüquqi aktların, normativ sənədlərin və təlimatların işlənib hazırlanması və qəbulu davam etdirilir ki, bu da öz növbəsində bu sistemin iş sahəsini tam və aydın şəkildə əhatə edir.

Seçki məcəlləsinə əsasən, AR-da yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin üzvləri çoxmandatlı seçki dairələri üzrə proporsional majoritar sistem üzrə seçilirlər.

Seçki dairələri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:

- Əhalisi 500-dən az olduqda, ərazidə - 5 bələdiyyə üzvü;
- Əhalisi 500-dən 999-dək olduqda, ərazidə - 7 bələdiyyə üzvü;
- Əhalisi 1000-dən 4999-dək olduqda, ərazilərdə - 9 bələdiyyə üzvü;
- Əhalisi 5000-dən 9999-dək olduqda, ərazilərdə -11 bələdiyyə üzvü;
- Əhalisi 10000-dən 19999-dək olduqda, ərazilərdə - 13 bələdiyyə üzvü;
- Əhalisi 20000-dən 49999-dək olduqda, ərazilərdə - 15 bələdiyyə üzvü;

- Əhalisi 50000-dən 99999-dək olduqda, ərazilərdə - 17 bələdiyyə üzvü;
- Əhalisi 100000-dən 299999-dək olduqda, ərazilərdə - 19 bələdiyyə üzvü(https://e-qanun.az/framework/1736).

Bələdiyyə məclisi üzvlərini 5 illik müddətdə seçir. Bələdiyyə məclis üzvlərinin səs verməsi əsasında bələdiyyə sədri təyin olunur.

Buraxılış mandatı səsvermə günündən başlayır və yeni seçilmiş mülkiyyətçinin ilk iclası günü başa çatır. Bələdiyyə üzvləri səlahiyyətləri ancaq bələdiyyənin səlahiyyət müddəti ərzində qüvvədədir.

Bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən keçirilir. Bələdiyyə seçkilərinin keçirilməsi haqqında qərar qəbul edildiyi gündən geci 2 gün müddətndə kütləvi informasiya vasitələrndə rəsmi dərc edilməlidir.

Seçki ərazisi üzrə bələdiyyə üzvünə namizədləri siyasi partiyalar və partiyaların blokları və həmçinin həmin seçki dairəsi üzrə müntəzəm səsvermə hüququna malik olan AR-sının vətəndaşları irəli sürə bilər. Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədlər bu seçkilərlə bağlı qərar rəsmi dərc olunduqdan sonra müəyyən olunur. Namizəd yalnız bir bələdiyyənin namizədliyini qəbul edə bilər. Bələdiyyə üzvlüyü yalnız bələdiyyə üzvlüyünə irəli sürülə və namizəd kimi qeydə alına bilər.

Müvafiq seçki ərazi dairəsi üzrə bələdiyə üzvlüyünə namizəd kimi qeydə alınması üçün irəli sürülmüş hər bir vətəndaş:

- əhalisi 99999-dan çox olan ərazilərdə - 150
- əhalisi 49999-dan çox olan ərazilərdə - 100
- əhalisi 19999-dan çox olan ərazilərdə - 75
- əhalisi 9999-dan çox olan ərazilərdə - 50
- əhalisi 4999-dan çox olan ərazilərdə - 30
- əhalisi 4999-dan az olan ərazilərdə - 15 seçicinin imzası toplamalıdır (https://e-qanun.az/framework/46953).

Seçicinin bələdiyyə üzvlüyünə bir neçə namizədlərin müdafiəsi üçün imzalamaq hüququ vardır.

Bir şəxs birdən artıq bələdiyyə üzvlüyünə namizəd ola bilməz. Bu qaydalar pozulduqda, namizədin bələdiyyə üzvlüyünə əvvəlki qeydiyyatı etibarlı sayılır və müvafiq dairə seçki komissiyalarının qərarı ilə nisbətən gec qəbul edilmiş qeydiyyat qərarı ləğv olunur. Bələdiyyə üzvlüyünə qeydə alınan namizədlərin siyahıları səsvermə gününə ən azı 55 gün qaldıqda müvafiq Seçki Şuraları tərəfindən müəyyən olunmuş dövri nəşrlərdə dərc edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 143-cü maddəsində bələdiyyələrin iş qaydası öz əksini tapıb. Bu məqalədə deyilir (https://e-qanun.az/framework/4770 ):

•Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və digər komissiyalar vasitəsilə həyata keçirir,

•Bələdiyyə iclasları bələdiyyə sədri tərəfindən çağırılır,

Ümumilikdə bələdiyyədən danışarkən ilk növbədə bələdiyyənin nə olduğunu bilmək daha məqsədəuyğun olardı. Bələdiyyə ,vətəndaşlara yerli əhəmiyyətli problemləri müstəqil və sərbəst həll etməyə imkan verən yerli özünüidarəetmə formasıdır.Hər bir bələdiyyə müstəqildir və öz mülkiyyətinə, büdcəsinə və seçkili orqanlarına malikdir.

Bələdiyyələr yerli əhəmiyyətli sosial, iqtisadi, ekoloji və digər məsələlərlə məşğul olurlar. Bələdiyyələr, sanitar qovşaqların təşkili, insanların peşə əldə etmələrinə köməklik etmək və s. kimi müxtəlif proqramları qəbul edib həyata keçirmək səlahiyyətinə malikdir.

Yerli özünüidarəetmə orqanları maliyyə cəhətdən mərkəzdən asılıdır. Bələdiyyələrin maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti, torpaqları, yerli büdcədənkənar və büdcə fondlar, bələdiyyənin xidmət, istehsal və digər təsərrüfat fəaliyyəti təşkil edir. Qeyd olunub ki, maliyyə resurslarının yaradılması və istifadəsi aşağıdakı prinsiplərə əsaslanır (https://e-qanun.az/ framework/5231) :

•Özünüidarəetmə,

•Müstəqillik,

•Həvəsləndirmək,

- Yerli maraqların respublikanın maraqları ilə uzlaşdırılması.

Ümumiyyətlə, yerli özünüidarələrr ümumi xüsusiyyətləri ilə yanaşı, onların yerləşdiyi rayon və insanların sayından asılı olub fərqliliklər mövcuddur. Buna baxmayaraq, bələdiyyələr müəyyən olunmuş vəzifə həyata keçirir və öz iş planında müvafiq olaraq müxtəlif prinsip əsasən struktura malik olur.

Müasir dövrdə ölkəmizin ictimaiyyətlə yeni növ beynəlxalq əlaqələrə və dövlətin inkişafına, inzibati sistemlərə inteqrasiya edərkən, iri korporativ qurumlar arası qarşılıqlı fəaliyyətin yeni interaktiv təşkili, yerli və dövlət idarəetmə sistemlərinin mərkəzləşdirilməsi arasında optimal nisbət, ölkə üzrə gedişat prosesində yerli hakimiyyət orqanlarına verilmiş səlahiyyyətlərdən ilə təyin edilir.

Bu inzibatçılığın optimallaşdırılması, dövlət və özəl əlaqələrinin təşkilindən, iştirak edən şəxslərin statusundan və onların sosial rifahının yaxşılaşdırılmasından asılıdır. Ölkəmiz və başqa İEÖ-lər üzrə regional mərkəzləşdirmə prosesi eyni yolla həyata keçirilir. İnkişaf etmiş ölkələrin müxalifət və alimlərinin marağına səbəb olan bu proses ölkəmizdə tam olaraq tədqiq olunmamışdır. Azərbaycanda yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsi prinsipləri, səlahiyyət və vəzifələri, maliyyə mənbələri və iş prinsipləri qanunla yuxarı orqanlar tərəfindən tənzim edilir. Seçkilər yolu ilə yerli özünüidarə orqanlarının yaradılması Avropa Şurasına üzv olan dövlətlərdə fundamental prinsiplərdən biridir. Avropa Şurasının qəbul etdiyi bu prinsiplər dünyanın digər demokratik ölkələrində də mühüm əhəmiyyət daşıyır.

Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, inkişafı və tətbiqi əhaliyə yaxın olan hakimiyyət orqanlarının səlahiyyətlərinə həvalə olunmalıdır. Qeyd olunan səlahiyyətlərdən birinin başqa bir orqana verilməsi qarşıya qoyulmuş vəzifənin həcmi, xarakteri, həmçinin qənaət, səmərəlilik kimi tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Azərbaycan Respublikasında sosialyönümlü, dövlət idarəçiliyi sahəsində qeyri-mərkəzləşdirmə problemlərinin həlli yolları təyin olunur. Burada fəaliyyətdə olan

yerli özünüidarə orqanları üçün iqtisadi, hüquqi, sosial və siyasi tərəflər çox vacibdir. Yerli özünüidarə etmə mexanizmlərini həll edərkən, görürük ki, yalnız nəzəri və təcrübi sferadan vacibliyi ilə deyil, eyni zamanda siyasi mövqe baxımından əhəmiyyəti nəzərə alınır.

Cari regional siyasət üzrə ərazi idarə edilməsi islahatlarının desentralizasiyası hərəkətləri həyata keçirilir, bununla yanaşı idarəçilik prinsiplərinə təsirini öz əksini göstərir. Bələdiyyələrin fəaliyyəti yerli hakimiyyət orqanlarının prinsiplərinə uyğun şəkildə normalara uyğun olaraq həyata keçirilir. Belə ki, baş vermiş problemin həllini, əhəmiyyətini və siyasi baxımdan önəmini, həmçinin siyasiyönümlü proseslərin iştirakını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Bunlar ölkəmizdə bələdiyyələrin iş prinsipi, başlıca nəticələrin konseptləşdirilməsi, yaranan problemlərin aşkar edilməsi məqsədilə hərtərəfli şəkildə analiz edilmiş, həll yolu kimi üsulların təyin olunması üçün tədqiq prosesində vacibliyi nəzərə alınmışdır. Bundan əlavə olaraq aparılmış tədqiqat işində bu proseslərin əhəmiyyətini vacibdir, çünki hazırda bu yöndə həlli qeyri-labüd olan üsullardan, nəzəri və təcrübi təhlillərdən istifadə edirlər.

Azərbaycanda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili böyük texnologiyanın qarşılıqlı əlaqəsi, istehsal növlərinin və texnoloji proseslərin inkişafı, məhsul buraxılışının təmin edilməsi texniki potensialın düzgün həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir. Yerli özünüidarənin yaradılması və bu istiqamətdə işlərin həyata keçirilməsi zamanı regionda baş verən son hadisələrin texniki aspektlərinin nəzərə alınması mühümdür. Rayonda istehsalın texniki bazası çox vacib sistemdir. Yerli özünüidarəetmədə texniki potensial sistemi resursdan istifadənin təşkilinin intensivliyini müəyyən edir.

Beləliklə, heç bir resurs və informasiya potensialı olmayan birbaşa yanaşma çıxışı əks etdirən məlumatların keyfiyyəti ilə izah edilir. Fəaliyyət prizmasından asılı olaraq resursların köməyi ilə biliklərin tətbiqi və yaradılmasında bir çox keyfiyyətlər yaranır. Müasir dövrdə elmin inkişafı şüurumuzun inkişafı, bilik istehsalı baxımından

praktiki məna və maddi səmərələrə malik olan elmdə əhəmiyyət kəsb edən biliyin nəticəsi kimi nəzərə alınır.

## 2.2. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin yaradılmasının əhəmiyyəti

Vətən Müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə artıq yaşayışın yenidən bərpası işinə başlanılıb. İndi hökumətin əsas vəzifəsi qısa müddət ərzində ərazini minalardan təmizləyərək yeni infrastrukturun tikintisinə başlamaq və yaşayış evlərinin tikintisi ilə paralel olaraq əhalinin öz torpaqlarına qayıtmasını təmin etməkdir. Lakin əhalinin qayıdışı təkcə fiziki deyil, həm də müvafiq idarəetmə qurumlarının yaradılması fonunda baş verməlidir. Onlardan biri də yerli özünüidarəetmə institutunu təmsil edən bələdiyyədir.

Burada vacib məqam 2 prinsipin son dərəcə düzgün aparılmasıdır :

- Şəffaf rejimdə icra prosesi
- Açıq şəkildə işlərin icrası.

Bu gün Azərbaycan artıq dünyada qalib ölkə kimi tanınır və bu, Azərbaycanın yaratdığı reallıqdır. 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi zəfər ordusu tərəfindən azad edilib. 44 günlük müharibədə Azərbaycanın Ermənistana qarşı parlaq qələbəsindən sonra işğaldan azad edilmiş torpaqlarda bərpa, abadlıq və quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında dediyi kimi, "Biz artıq işğaldan azad edilmiş torpaqların bərpasına başlamışıq. Yenidənqurma proqramı davam edir. Çox iş görmək lazımdır, çünki işğaldan azad edilmiş torpaqlarda hər şey - şəhərlər, kəndlər, mədəniyyət abidələri, bütün infrastruktur dağıdılıb".

Qısa müddətdə Böyük Qayıdış bayramı kimi dövlətimizin başçısının sərəncam və göstərişləri ilə görülən işlər hər kəsin diqqətini cəlb edir. Yeni yolların salınması, abidələrimizin təmiri və bərpası, infrastrukturun qurulması və s. bu ərazilərin tezliklə böyük bərpasından xəbər verir. Vətəndaşlar da, qonaqlar da işğaldan azad edilmiş

torpaqlarımızı ziyarət edərkən böyük quruculuq işlərinin şahidi olurlar ki, bu da hamını sevindirir.

Məlumdur ki,  30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızda əksər yaşayış məntəqələri, sosial-iqtisadi infrastruktur dağıdılıb. Tarix, mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib. Ayrı-ayrı vətəndaşlarımızın yaşadığı evlər və mənzillər sökülüb. Ermənilərin bu rayonlarda apardıqları əkinçilik əməliyyatı çoxəsrlik yeraltı və yerüstü sərvətlərimizə qarşı vandalizm aktıdır. Azərbaycanın işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Ağdam və Şuşa şəhərlərinə, Gəncəyə səfər edən jurnalist Ermənistanın 30 ilə yaxındır işğal altındakı torpaqlarımızda apardığı nəhəng minalanmış sahələrdən danışıb. İşğal zamanı Ermənistan silahlı qüvvələri tərəfindən yüz minlərlə mina yerləşdirilib və Ermənistan mina xəritələrini verməkdən imtina edib.

Azərbaycan işğaldan azad edilmiş torpaqlarda intensiv bərpa və yenidənqurma işləri aparır. İşğaldan azad edilmiş Ağdam, Şuşa, Zəngilan kimi rayonlarda abadlıq işləri böyük əzmlə davam etdirilir. Yeni istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı və "ağıllı şəhər" konsepsiyası sayəsində bu sahələrə qoyulan investisiyaların həcminin artacağı, geniş iqtisadi imkanların yaradılacağı bildirilir. Bərpa olunan ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası pilot layihə kimi həyata keçirilib. "Ağıllı kənd" layihəsi birinci mərhələdə Zəngilan rayonunun üçüncü Ağalı kəndində həyata keçiriləcək.

Bərpa olunan ərazilər tikinti və həmçinin sənaye əhəmiyyətli müxtəlif xammal ilə zəngindir. Həmçinin, bu ərazilər ümumi sənaye və kənd təsərrüfatı sektoru üçün son dərəcə əhəmiyyətli olan zəngin su ehtiyatlarına malikdir. Rayonda böyük müalicəvi əhəmiyyət kəsb edən 120-yə yaxın müxtəlif tərkibli mineral su yatağı mövcuddur.

Ümumiyyətlə, Azərbaycanın mineral su ehtiyatlarının təxmini 40%-i işğaldan azad olunmuş ərazilərin payına düşür. Rayonun enerji ehtiyatları (su elektrik, günəş,

külək və istilik enerji potensialı) iqtisadiyyatın bütün sahələri kimi əhalinin gündəlik enerji tələbatının ödənilməsində mühüm rol oynayacaqdır.

Bütün bu və digər faktlar onu deməyə əsas verir ki, bu rayonlarda müxtəlif mülkiyyətdə olan geniş müəssisələr şəbəkəsi formalaşdırmaq üçün xammal və enerji ehtiyatları kifayət qədər mövcuddur. Bu sərvətlərdən qənaətlə istifadə etməklə Qarabağın davamlı sosial-iqtisadi inkişafı indiki və gələcək nəsillərin əsas vəzifəsidir. Onu da qəbullanmaq lazımdır ki, vandal ermənilər tərəfindən məhv edilmiş torpaqları, daşınmaz əmlakları, maddi və mənəvi sərvətləri qısa müddətdə bərpa etmək asan olmayacaq. Amma əminliklə deyə bilərik ki, xalqımızın 30 illik həsrətinə son qoyan Prezidentimiz cəsarət, uzaqgörənliyi, diplomatik qabilliyyəti və qətiyyətli addımlarıyla Qarabağımızın qurtuluş prosesinə uğurla öncülük etdi. İlham Əliyevin birbaşa dəstəyi ilə bu çətin və çox mürəkkəb sosial-iqtisadi problemlər tezliklə öz həllini tapacaqdır.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazisində müvəqqəti xüsusi idarəetmənin təşkili, işğaldan azad edilmiş torpaqlarda müvəqqəti idarəetmə məntəqələrinin yaradılması və xüsusi təyinatlı obyektlərin mühafizəsi və bərpası haqqında” Azərbaycan Respublikası Prezidentinin 29.10.20200- ci il tarixli Fərmanı , mühafizəsi əhali və ətraf mühitin təhlükə mənbəyi olan, ictimai təhlükəsizliyin qorunması və digər mühüm mövzular müzakirə olunmaqdadır.

2021-ci ilin sentyabr-noyabr aylarında Azərbaycanın 6 rayonu - Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları tam, Şuşa, Laçın, Xocavənd və Xocalı rayonları isə qismən işğaldan azad edilib. Hazırda Şuşa şəhəri və Şuşa rayonunun 2 kəndi, Hadrut qəsəbəsi və Hocavənd rayonunun 35 kəndi, Xocalı rayonunun 9 kəndi Azərbaycanın nəzarətindədir. Laçın rayonuna gəlincə, Laçın şəhəri və rayona daxil olan bir neçə kənddən başqa, digər ərazilər də işğaldan azad edilən yaşayış məntəqələri sırasındadır. Tərtər vilayətinin işğal olunmuş son üç kəndi də Azərbaycan hökumətinin nəzarətinə keçdi.

Prezident İlham Əliyev AR Konstitusiyasının 109-cu maddəsinə uyğun olaraq, işğaldan azad edilmiş torpaqlarda müvəqqəti xüsusi idarə yaratmaq və Azərbaycan Prezidentinin Fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə bir sıra addımlar atılıb. Respublikanın 27 sentyabr 2020-ci il tarixli və 1166 nömrəli "Hərbi vəziyyət elan edilməsi haqqında" sərəncam imzalanmışdır. Fərman 15 maddədən ibarətdir. Onun əsas məqsədi hərbi vəziyyətin sonuna qədər işğal olunmuş ərazilərə nəzarət etməkdir (https://static.president.az /pdf/38542.pdf).

Sərəncamın birinci bəndinə əsasən, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə uyğun olaraq hər bir rayonda müvəqqəti komanda məntəqələri yaradılacaq. İkinci bəndə əsasən, Daxili İşlər Nazirliyi müvafiq rayonların müvəqqəti komandirlərini təyin edəcək və müvəqqəti komandirlərin fəaliyyətini təşkil edəcək.

Üçüncü bəndə əsasən, müvəqqəti idarəetmə orqanları öz fəaliyyətlərini Dövlət Sərhəd Xidməti və Müdafiə Nazirliyi ilə əlaqələndirəcəklər. Müvəqqəti komandanlıq idarələrinin nəzdində həmçinin dövlət orqanlarının nümayəndələrinin daxil olacağı operativ qərargah yaradılacaq. Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Maliyyə Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və yerli icra hakimiyyətinin orqanları daxil ediləcək.

Müvəqqəti komandanlıqlar fəaliyyət göstərdikləri ərazilərdə müxtəlif tapşırıqların icrasını təmin edəcəklər. Bu vəzifələrdə mühüm obyektlərin, həmçinin nəqliyyat və telekommunikasiya infrastrukturunun, su anbarlarının, su və enerji təchizatı sistemlərinin, ətraf mühit və insanlar üçün yüksək təhlükə yaradan xüsusi təyinatlı obyektlərin mühafizəsi, ictimai asayişin və ictimai təhlükəsizliyin, aşkar edilmiş hərbi texnikanın, silahların, döyüş sursatı, zəhərli və toplanması, inventarlaşdırılması və qorunması, partlayıcı maddələrin saxlanması və digər mülki texnikanın nəzarəti, kənd təsərrüfatı texnologiyası istisna olmaqla, nəqliyyat

vasitələrinin mühafizəsi, uçotun mühafizəsi və aşkar edilmiş sənədlərin sonrakı təhlili, döyüş vəziyyətinin təmin edilməsi Azərbaycan Respublikasının "Hərbi vəziyyət haqqında" Qanununda nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsi və s.

Müvəqqəti komandanlıq orqanları müvafiq dövlət orqanları ilə birlikdə mühafizə vəzifələrini də yerinə yetirəcəklər. Təhlükəsizlik tədbirləri Dövlət Təhlükəsizliyi Xidməti və Ərazilərinin Minalardan Təmizlənməsi Milli Agentliyi ilə birlikdə Azərbaycan Respublikasına qarşı terrorizm, casusluq, təxribat və digər qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə minalardan təmizləmə və minalardan təmizləmə üzrə zəruri tədbirlərin görülməsini, o cümlədən hidrotexniki qurğuları əhatə edir.

Bundan əlavə, Daxili İşlər Nazirliyi və Müdafiə Nazirliyinnə nə tapşırılıb ki, işğaldan azad edilmiş ərazilərin giriş-çıxışlarında xüsusi rejimin tətbiqinə təminat versinlər. İşğaldan azad edilmiş rayonlarımızda "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB dövlət orqanlarının binalarını su, elektrik enerjisi və təbii qazla təmin edəcək (https://apa.az/az/cebhe_ xeberleri/Isgaldan-azad-olunmus-razilrd-giris-cixisin-xususi-rejimi-ttbiq-edilck-612868).

Müvəqqəti komandanlıqların fəalliyyətinə ümumi nəzarəti AR Prezidentinin Administrasiyası tərəfindən həyata keçirir.

# III FƏSİL. II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI VƏ ONLARIN İNKİŞAF PROBLEMLƏRİ

## 3.1. II Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyət problemlərinin araşdırılması

Azərbaycanda 1999-cu ildən bələdiyyələr fəaliyyət göstərir. Ermənistanın işğalı nəticəsində indiyədək 950-dən artıq yaşayış məntəqəsində bələdiyyə seçkiləri keçirilməyib və bu torpaqlarda vətəndaşlarımızın konstitusion hüquqları pozulub.

İşğaldan azad olunmuş torpaqlarda görüləcək mühüm işlərdən biri də yerli özünüidarəetmə orqanlarının yenidən təşkil edilməsidir. Ona görə də bələdiyyələrin yaradılması təbii ki, işğaldan azad edilmiş torpaqlarda optimal idarəetmənin təşkili, vətəndaşların bu torpaqlara köçərək yerli əhaliyə qoşulması imkanlarının təşviq edilməsində dövlət quruculuğunun zəruri addımı və tərkib hissəsidir.

Bununla belə, bu idarəetmə sistemlərinin qurulmasında bir çox çətinliklər var. Fikrimcə, ilk növbədə, aşağıdakı məsələlər tam həll edildikdən sonra rayonda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətini tam şəkildə təşkil etmək mümkündür:

1. Ərazilərin tam olaraq minalardan və müharibə dövründən qalmış silah-sursatlardan təmizlənməsi,

2. Ərazidə dağıdılmış infrastrukturun, yolların, şəhərlərin və digər yaşayış məntəqələrinin bərpa edilməsi,

3. Məcburi köçkünlərin yenidən öz yurdlarına pilləli şəkildə köçürülməsi.

Əvvəla, Qarabağ 30 ilə yaxındır ki, işğal altındadır və rayonun infrastrukturu düşmən tərəfindən yararsız hala salınıb. Həmçinin rayonun çox hissəsi - xüsusilə Füzuli, Ağdam, Kəlbəcər, Cəbrayıl əraziləri piyada və tanklara qarşı güclü minalanmışdı. Yerli özünüidarənin yaradılması, əhalinin və köçkünlərin yerləşdirilməsi üçün bu ərazilərdə intensiv minatəmizləmə işləri aparılmalıdır.

Atəşkəs elan olunduqdan sonra minalardan ölənlərin sayı 50-yə çatmışdır. Onların arasında Rusiya sülhməramlı hərbçisi də var. Hazırda Qarabağın demək olar ki, bütün rayonlarında minalardan təmizləmə işləri davam edir. Prosesdə Azərbaycan əsgərləri ilə yanaşı, Rusiya və Türkiyə istehkamları da iştirak etmişdir.

Azərbaycanın nəzarətində olan ərazilərdə minalardan təmizləmə əməliyyatları Birinci Qarabağ müharibəsindən bəri həyata keçirilir. Minatəmizləmə uzun müddətli və resurs tutumlu prosesdir. Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatına əsasən atəşkəsdən sonra bu istiqamətdə aparılan işlər nəticəsində təxminən 20 min 165 hektar ərazi minalardan təmizlənib. Bu ərazilərdə 40 min partlamamış hərbi sursat aşkar edilib. Bu sursatın ümumi dəyəri 2 milyon dollardan çoxdur(https://azertag.az/xeber/Vuqar_Suleymanov_Isgaldan_azad_edilen_erazilerde_oten_il_41 _min_5 03_mina_ve_partlamamis_herbi_sursat_askarlanib-1969523)

Azərbaycan Ordusunun işğaldan azad edilmiş ərazilərimizdə yerləşən mühəndis-istehkam bölmələri Türkiyə Milli Müdafiə Nazirliyinə tabe olan ASFAT AŞ şirkətinin istehsalı olan MEMATT (Mexanik Mina Təmizləmə Aparatı) avadanlığı ilə təchiz edilib. Bu texnika yaşayış məntəqələrinin və əkin sahələrinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsində iştirak edir .

Minatəmizləmə prosesində Böyük Britaniya və Xorvatiyanın bəzi təcrübəli, ixtisaslaşmış şirkətlərinin təcrübəsindən də istifadə olunur və onların işçi heyəti prosesə cəlb olunub.

Mütəxəssislərin hesablamalarına görə, Qarabağda minaların sayı 4,5 milyona yaxındır. Bu miqdarda sursatın ümumi dəyəri isə, təxminən, 340 milyon dollardır. Belə nəticəyə gəlmək olar ki, Ermənistan bu dövr ərzində 2020-ci il hərbi büdcəsinin 50 faizini Azərbaycan ərazilərinin minalanmasına sərf edib. Amma müharibədə bu özünü göstərdi ki, bu xərclər əhəmiyyətsiz idi.

ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılovun sözlərinə görə, bu ərazilərin minalardan tam təmizlənməsi 3-5 ildən 10 ilə qədər vaxt aparacaqdır.

Təmizlənmiş ərazilərdə infrastrukturun yenidən qurulması minatəmizləmə prosesi ilə paralel olaraq davam etdirilməlidir. Ən vacib məsələlərdən biri də zədələnmiş yol infrastrukturunun bərpasıdır.

Azərbaycan Dövlət Avtomobil Xidmətinin rəsmi saytına istinadən verdiyi məlumata görə, Qarabağda bir çox iri yol tikintisi layihələri uğurla həyata keçirilir. Belə ki, qurumun hesabatına əsasən, 2022-ci ilin mart ayından Qarabağda icrası davam edən aşağıdakı yol infrastrukturu layihələri həyata keçirilir (https://www.realtv.az/news/az/104671/qarabag-ve-sherqi-zengezurdaki-yol-layiheleri-barede-melumat-achiqlanib-video).

Başqa sözlə desək, ərazilərin yenidən bərpa üçün üstünlük konseptual yanaşmaya verilməlidir. Kontekstə Qafqaz Strateji Araşdırmalar İnstitutunun dəstəyi ilə 2010-cu ildə tanınmış iqtisadçılar Nazım Müzəffərli ilə Eldar İsmayılov tərəfindən hazırlanıb nəşr edilmiş “Azərbaycanın post-konflikt zonalarının bərpası (konseptual çərçivə)” baş monoqrafiyası da öz əksini tapıb. Verilənlər bazasının və müvafiq dövlət proqramlarının inkişafı üçün təkmilləşdirilmiş tədqiqatların nəticəsi verilmişdir (https://karabakh.center/storage/libraries/XzQ7nXyblCukEcktVAwUVcP2PQYBf2nRIEJgpYYz.pdf 2010).

Mənfur qonşularımız 30 ilə yaxın işğal altında olmuş əraziləri darmağın etmələri ilə yanaşı Vətən Müharibəsi dövründə digər rayonlarımızı atəşə tutmuşlar və çox sayda ziyan dəymişdir.Buna görə də , aparılacaq bərpa və tikinti işlərinin geniş miqyaslı olması istisna olunmur. Gəncə, Ağdam, Füzuli, Ağcəbədi, Tərtər, Bərdə rayonlarının qismən, Xankəndi şəhəri, Xocavənd, Xocalı, Şuşa nisbətən az Qubadlı, Cəbrayıl, Zəngilan, Kəlbəcər və Laçın rayonlarının isə tam bərpası nəzərdə tutulur.

**Cədvəl 1: Nəqliyyat sahəsində fəaliyyət**

| İcra olunan yol infrastrukturu layihələri | Bitmə tarixi\il | Texniki göstəriciləri |
|---|---|---|
| Əhmədbəyli – Şuşa– Füzuli avtomobil yolu | **2024** | 81.6 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı |
| Kəlbəcər - Laçın avtomobil yolu | **2025** | 123.6 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolu | **2026** | 80.7 km, I-II texniki dərəcəli, 2-3 hərəkət zolaqlı, Murodağ tuneli – 11.6 km; tunel 1 – 6.3 km. |
| Kəlbəcər və Laçın ərazisində yol infrastrukturunun tikintisi | **2022** | 726.3 km, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı. |
| Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu | **2024** | 123.6 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Xudafərin – Qubadlı – Laçın avtomobil yolu | **2023** | 70.4 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Qubadlı - Eyvazlı avtomobil yolu | **2022** | 28.5 km, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı. |
| Şükürbəyli - Cəbrayıl - Hadrut avtomobil | **2023** | 64,8 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Füzuli -– Hadrut avtomobil yolu | **2022** | 12 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Bərdə – Ağdam avtomobil yolu | **2022** | 45 km, I texniki dərəcəli, 4 hərəkət zolaqlı. |
| Talış – Tapqaraoyunlu – Qaşaltı – Naftalan avtomobil yolu | **2022** | 22 km, II-IV texniki dərəcəli, 2 hərəkət zolaqlı. |
| Qubadlı - Mahmudlu - Yazdüzü - Ermənstan sərhədi avtomobil yolu | **2022** | 26,4 km, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı. |
| Hadrut-Tug-Azıx magarası avtomobil yolu | **2022** | 22 km, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı. |

**Mənbə:** http://www.aayda.gov.az/az/news/3319/qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonlarinda-icra-olunan-yol-layiheleri-barede-melumat

Qeyd edək ki, Prezident İlham Əliyev 2021-ci il noyabrın 7-də Füzulidən Şuşaya birbaşa "Zəfər yolu" nun açılışını edib. Hacıqabul-Mincivan-Zəngəzur dəhlizindən keçən 101 kilometrlik Qələbə yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisində salınan Qələbə yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə ona görə son dərəcə əhəmiyyətlidir ki, o, ilk növbədə vətənə

qayıdacaq insanların rahatlığının təmin edilməsinə, onlar üçün yüksək həyat səviyyəsinin və yaşayış səviyyəsinin yaradılmasına xidmət edir.

Qarabağda infrastrukturun bərpası istiqamətində atılan ən mühüm addımlardan biri də Prezidentin Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyində olan Qarabağ Regional Baş Memarlıq və Şəhərsalma İdarəsinin Əsasnaməsinin təsdiq edilməsi olmuşdur (https://e qanun.az/framework/48088).

Qarabağda hazırda davam edən infrastruktur işlərinin ən bariz nümunələrindən biri də Zəngilan rayonundakı "Ağıllı kənd" layihəsidir. Aprelin 26-da cənab İlham Əliyevin Zəngilan rayonna səfəri zamanı Ağalı kəndinin ərazisini əhata edən birinci "Ağıllı kənd" layihəsi təməlini qoydu. Bununla işğaldan azad olunmuş ərazilərdə müasir tələblərə cavab verən və beynəlxalq normalara əsaslanan yeni inkişaf modelinin icrası başlanıldı.

İlk dəfə Qarabağda həyata keçiriləcək "Ağıllı kənd" layihəsi mənzil, sosial xidmətlər, istehsal, alternativ enerji və"ağıllı kənd təsərrüfatı" olmaqla 5 komponent üzrə həyata keçiriləcək. İlkin olaraq ərazidə tam izolyasiya edilmiş və innovativ tikinti materiallarından istifadə edilməklə 200 evin tikintisi nəzərdə tutulub. Evlərin məişət texnikası və istilik sistemləri smart texnologiyalar əsasında qurulacaq.

Bütün bu işlərdən sonra ən əsas mərhələ isə məcburi köçkünlərin mərhələli şəkildə öz yurd-yuvalarına qayıdışı prosesidir. Yalnız bundan sonra artıq bu ərazilərdə yerli özünüidarəetmə orqanlarının fəaliyyətini təşkil etmək olar.

Azərbaycanın 20 illik yerli özünüidarəetmənin təşkil edilməsi təcrübəsi olduğundan işğaldan azad edilmiş ərazilərdə yerli hakimiyyət orqanlarının yaradılması çətin olmayacaq. Şəhər və rayon mərkəzlərində şəhər bələdiyyələri, qəsəbələrdə qəsəbə bələdiyyələri , kənd yaşayış məntəqəsində kənd bələdiyyələri yaradılacaq. Büdcə gəlirlərinin yaradılması və büdcə xərclərinin rəsmiləşdirilməsi təcrübəsi yeni bələdiyyələrdə də öz əksini tapacaq

(https://bakuresearchinstitute.org/az/how-should-self-government-be-established-in-the-liberated-territories/).

Ancaq yerlərdə sturukturların bərpası üçün 2 seçim var:

• Yerli özünüidarə orqanlarının mövcud idarəetmə prinsiplərini olduğu kimi saxlamaq;

• Əks-mərkəzləşmə islahatları aparmaqla yeni yerli özünüidarəetmə sistemini qurmaq.

Digər tərəfdən, ölkə prezidenti Ermənistan Respublikası Silahlı Qüvvələrinin regiona hücumu nəticəsində mülki şəxslərə, dövlət əmlakına və ticarət obyektlərinə, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

2020-ci il noyabrın 6-da dəymiş ziyanın qiymətləndirilməsi, onların aradan qaldırılması, tam bərpa və təmiri üçün büdcədən vəsaitin ayrılması ilə bağlı AR Prezidentinin sərəncamına əsasən xüsusi Dövlət Komissiyası yaradılmışdır( https://e-qanun.az/framework/46262).

Sakinlərin işğaldan azad edilmiş ərazilərin idarə olunmasından böyük gözləntiləri var. Hökumətin bu sahələrdə ən yaxşı təcrübələri tətbiq edəcəyi gözlənilir. Oxşar gözləntilərin bələdiyyələrdə də öz əksini tapacağı zəruridir. Yeni bələdiyyələrin daha çox səlahiyyətə malik olacağına inanılır. Sosial təminat sahəsində ictimaiyyətlə əlaqələrimiz yüksək səviyyədədir. Ölkədə bütün bələdiyyələr idarə səlahiyyətlərinin və maliyyə imkanlarının məhdud olması yeni bələdiyyələrin yeni səlahiyyətlərin verilməsi real olmaya bilər.

2002-ci ildə Azərbaycan Avropa Yerli Özünüidarəetmə Xartiyasını xüsusi bəyanatla təstiq olunmuşdur. “Azərbaycan Respublikası işğal olunmuş ərazilər azad edilənə qədər Ermənistan Respublikasının Xartiyanın işğal olunmuş ərazilərində maddələrinin həyata keçirilməsinə təminat verə bilməz” -bəyanatda deyilir (https://e-qanun.az/framework/1026). Dağlıq Qarabağ və yeddi rayonun Ermənistan silahlı

qüvvələri tərəfindən işğalı yüz minlərlə məcburi köçkünü özünüidarəetmə hüququndan məhrum edib.

Avropa Yerli Özünüidarəetmə Xartiyasının 4.3-cü maddəsində deyilir: "Dövlət səlahiyyətlərinin icrası, bir qayda olaraq, ilk növbədə vətəndaşlara nisbətən yaxın olan orqanlara həvalə edilməlidir"(https://e-qanun .az/framework/1026). Nizamnamə yerli özünüidarə ilə bələdiyyənin vətəndaşlarına ən yaxın orqanlar olmasını nəzərdə tutur. Çünki hesab olunur ki, yerli idarəetmə orqanlarının mərkəzi orqanlarından fərqli olaraq, yerli problemlərlə daha yaxından tanışdırlar.

YÖİ haqqında Avropa Xartiyasının təstiq edilməsi barədə AR qanuna əsasəm yerli özünüidarənin səlahiyyət sahəsi bunlardır (https://e-qanun.az/framework/1026):

- Yerli özünüidarəetmə orqanlarının əsas vəzifələri konstitusiya və qanunla müəyyən olunur. Ancaq bu bənd yerli özünüidarə orqanlarına konstitusiya və qanuna uyğun şəkildə ayrı-ayrı səlahiyyətlərin verilməsini istisna etmir,
- Yerli özünüidarəetmə orqanları onların vəzifələrindən çıxarılmamış və digər bir orqanının səlahiyyətinə aid olunmammış hər hansı bir məsələyə dair öz fikirlərini reallaşdırmaq məqsədilə qanunla müəyyən olunmuş hüdudlarda tam sərbəstliyə malikdirlər (Səlimzadə M.İ.2010: s280).

29 Oktyabr 2020-ci il Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə işğaldan azad edilmiş rayonlara komandirlər və müavinlər təyin edilib.

Ağdam və Füzuli rayonların bəzi hissələri işğal olunmadığından bəzi yaşayış məntəqələrində yerli hakimiyyət orqanları fəaliyyət göstərir. Hazırda Ağdam rayonunda ümumi 14 bələdiyyə tabeliyində 11 qəsəbə və 79 kənd, Füzuli rayonunda isə 1 rayon, 16 qəsəbə və 18 kəndi əhatə edən 21 bələdiyyə fəaliyyət göstərir. Təbii ki, işğaldan azad edilmiş torpaqlara əhali köçürüldükdən sonra digər dövlət qurumlarla yanaşı, yerli özünüidarə orqanları da yenidən bərpa olunacaqdır. İlkin hesablamalara əsasən 259-a yaxın yeni bələdiyyənin işğaldan azad olunmuş ərazilərdə yaradılması mümkün olacaqdır.

Nəzərdə tutulan tədbirlərin hər biri üçün hüquqi bazanın yaradılması zərurətini nəzərə alaraq, işğal olunmuş ərazilər haqqında onun tam bərpası və sosial-iqtisadi inkişafı dövlət proqramının işlənib hazırlanması və qəbulu, habelə dövlət proqramı hazırlanmışdır.

## 3.2. II Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının inkişaf hədəfləri

II Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə dövlət və yerli özünüidarəetmə orqanlarının həyata keçirəcəyi işlər çoxşaxəlidir. İşğaldan azad olunmuş ərazilərin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin genişlənməsi, əlaqələndirilməsi, sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsinin təşkil etdirilməsi və digər istiqamətlərdə fəaliyyəti qarşıya qoyulan əsas məsələlərdəndir.

İşğaldan azad olunmuş bölgələrdə şəhərsalma məsələləri haqqında Azərbaycan Respublikasi prezidentinin Fərmanında, AR Konstitusiyasının 109-cu maddəsinin 32ci bəndinə əsasən qeyd olunmuşdur (https://e-qanun.az/framework/48088) :

- “Azərbaycan Respublikasının Dövlət Şəhərslma və Arxitektura Komitəsi yannda Qarabağ Regional Memarlıq və Şhərsalma Baş İdarəsi haqqında Əsassnamə” təsdiq edilsin;
- Azərbaycan Respublikasının Dovlət Şəhərsalma və Arxıtektura Komitəsi yanında Qarabağ Region Memarlıq və Şəhərsalma Baş İdrəsi yaradılsın (https://static.president.az/pdf/38542.pdf );

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Azərbaycan Respublikası Şəhərsalma və Arxıtektura Komitəsinin tabeliyində olan Qarabağ bölgəsi üzrə memarlıq və şəhərsalma baş idarələrinin fəaliyyəti üçün müvafiq yer ayrılması, zəruri maddi-texniki və maliyyə təminat probleminin həlli;
- Fərmandan irəli gələn məsələri həll etsin;

- Azərbaycan Respublikasının Dövlət Şəhrsalma və Tikinti Komitəsi Qarabağ rayon tikinti və şəhərsalma baş idarəsinin yaradılması, tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsi, icazələrin verilməsi səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün(https://e-qanun.az /framework/48088).

“Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi barədə Əsasnamənin, komitənin tərkibinin təsdiq edilməsi, qurumun işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər təstiq edilsin(https://static.president.az/pdf/38542.pdf):

- Qarabağ Regional Memarlıq və Şəhərslma Baş İdarəsi üzrə isə 80 rayon vahidi” sözü işlədilsin;
- Fərmanla təsdiq olunmuş “Azərbaycan Respublikasının Dövlət Şəhəsalma və Arxitektura Komitəsinin Stırukturu” 3-cü hissəsinə əlavə edilsin;
- Azərbaycan Respublikasının Dövlət Şəhərssalma və Arxitektura Komitəsi yanında Qarabag Regional Memarlıq və Şəhərslma Baş İdarəsi” yaradılsın.

Ölkə başçısının 2020-ci il 27 fevral Sərəncamı ilə təsdiq olunmuş “Açıq Hökumətin təşviqi barədə 2020-2022-ci illəri əhatə edən Milli fəaliyyət planında da yerli özünüidarəetmə hesabatlılığın və ictimai iştirakşılığın təmin edilməsi məqsədilə nəzərdə tutlmuş tapşırıqların icrasi istiqamətində bir çox tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbədən sonra formalaşmış yeni tərzə , yeni reallıqlara uyğun olaraq işlər həyata keçirilir. Eyni zamanda nəzərə alsaq ki, artıq iqtisadi rayonların sırasında yeni - Şərqi Zəngəzur, Qarabağ iqtisadi rayonlarının adlarının həm iqtisadi, həm strateji, həmçinin də tarix baxımdan vacibdir. Əvvəlki təsnifata əsasən Kəlbəcər, Laçın və Yuxarı Qarabağ iqtisadi rayonları vardır , ancaq yeni təsnifatda Qarabağ bölgəsində yerləşən bütün rayonlar Qarabağ iqtisadi rayonunda aid olunacaq.

Azərbaycan ərazisinin 20%-nə yaxın ərazisinin 27 ildən çox işğal olunması torpaqlarımızın iqtisadi potensialından istifadə etməyə imkan vermirdi. Əvvəlki təsnifata əsasən Yuxarı Qarabağ rayonu ötən il 637 milyon 70 min manat, həmçinin Ağdam rayonu 1.72 milyon 934 min manat, Füzuli rayonu 1.38 milyon 652 min manat dəyərində məhsul istehsal edib. Dörd rayoları əhatə edən keçmiş Kəlbəcər-Laçın iqtisadi regionunda isə cəmi 97 milyon 838 min manat dəyərində məhsul istehsal olunub.

Bu istehsal da həmin regionda bəzisinin nəzarətdə olan yaşayış məntəqələrində, respulikanın digər bölgələrində məskunlaşmış idarə və müəssisələri hesabına baş verib. Qarabağın ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışında çəkisi 0,7 faiz, Kəlbəcər-Laçın iqtisadi regionunda da isə cəmi 0,1 faiz təşkil etmişdir. Belə ki, uzun müddət işğal altında qalmış ərazilərdə ümumi iqtisadiyyatda çoxdur.

Qarabağ iqtisadi rayonunun hazırki potensialı, xammalı, təbii ehtiyatları və məhsuldar torpaq sahələrinin həcmi nəzərə alınsa, bərpa mərhələsindən sonra qısa müdətdə həmin ərazilərdə məhsul istehsalatının artacağı proqnozlaşdırılır. Bu yaxın müddətdə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yenidənqurma və bərpa, iş yerlərinin yaradılmasını, təşkili və güclü iqtisadi inkişafın müşahidəsinə gətirib çıxarır.

Şərqi Zəngəzur iqtisadi rayonu iqtisadi, strateji və ən vacibi tarixi baxımdan əhəmiyyətə malikdir. Şərqi Zəngəzur iqtisadi rayonu həmin bölgənin iqtisadi imkanlarının istifadə edilməsi və genişləndirilməsi üçün mühümdür. Qarabağ iqtisadi rayonunun sənaye, turizm, həmçinin aqrar sektorda potensialı yüksəkdir. Şərqi Zəngəzur təbii ehtiyatlar və aqrar baxımından kifayət qədər yüksək potensiala sahib iqtisadi rayondur.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ,işğaldan azad olunmuş rayonlarımız və bütövlükdə Qarabağın bərpası və yenidənqurması prosesinin daha sürətli həyata keçirilməsinə, eləcə də iqtisadi inkişafın yaradılmasında daha

sistemli və dövlət proqramların çərçivəsində yanaşmanın həyata keçirilməsinə şərait yaradacaqdır.

Qarabağın inkişaf üçün strategiya qısa, orta və uzunmüddəti periodu əhatə etməklə, yerli, regional və beynəlxalq səviyyələrdə olan fəaliyyətləri əks etdirir. Strategiyanın icrası üçün idarəetmənin strukturu, təşkili və ölkənin makroiqtisadi, fiskal, pul, sosial və digər siyasət növlərindən istifadə mühüm əhəmiyyət kəsb edir. İrimiqyaslı dövlət maliyyələşdirməsinin əhəmiyyətini nəzərə alaraq, beynəlxalq inkişaf tərəfdaşları tərəfindən dəstəklənən fiskal dayanıqlığın və donorların əlaqələndirilməsi mexanizmlərinin monitorinqi vacibdir.

Eyni vaxtda mili valyutanın real məzənnəsini tənzimləmək üçün valyutanın iqtisadiyyat tərəfindən mənimsənilməsi mərhələsini də nəzərə almaq lazım gələ bilər.

Post-konflikt quruculuğu ölkəmizdə iqtisadi artımı möhkəmləndirən amil kimi rol oynayacaqdır. Azərbaycan bölgədə siyasi, iqtisadi və üstünlüyünü möhkəmləndirməyə davam edəcək.

Azərbaycanda əmək ehtiyatları sabit qaldığından əsas kapitalın - fondların artması kapital tutumlu iqtisadi artımı sürətləndirir. Yeni əsas fondlar müasir texnologiyalara əsaslandığı üçün fondun səmərəliliyini, yəni kapitalın manatına düşən məhsul dəyərini artıracaq. Solou modelinə görə, Qarabağa sərmayə qoymaq daha çox dəyər yaradacaq, çünki o, sıfırdan başlayır və tarazlığa qədər olan məsafə böyükdür.

Biz yerli investorlara azad edilmiş torpaqlara investisiya qoymaq üçün institusional endirimlərdən vergi tətillərinə qədər bir sıra stimullar təqdim etməliyik. Bu, həmçinin miqrasiya kapitalının müxtəlif ölkələrə axınının qarşısını ala bilər.

Dövlət büdcəsi hesabına yaratdığı investisiya infrastrukturu xarici sərmayələrin cəlb edilməsi üçün şərait yaradılmalı, yəni infrastruktur cəlbediciliyinə görə ölkəyə xarici investisiya axınını yerləşdirməlidir. Xarici investisiyalar iqtisadiyyatda dəyər yaradır. İnfrastruktur dəyər yaratmayanda xərclər yaradır, çünki qurulmuş infrastrukturun özü ildən-ilə əlavə təmir xərcləri və azalmalar tələb etməyə başlayır.

Ona görə də elə infrastruktur sistemi yaratmaq lazımdır ki, o mütləq xaricdən investisiyanı cəlb etsin.

Qarabağda dövlət investisiyaları katalizator, özəl investisiyalar isə hərəkətverici qüvvə olacaq. İqtisadçıların fikrincə, iqtisadi artıma təsir edəcək amillər var: Bunlardan biri iqtisadiyyatın özünün və insan kapitalının səmərəliliyidir. Belə ki, prezident İlham Əliyev Qarabağda yeni, daha effektiv idarəçilik modelini təqdim edib, hətta prezidentin xüsusi nümayəndəliyinin yaradılması barədə göstəriş verib. Eyni zamanda, Qarabağ Dirçəliş Fondu yaradıldı. Bu, Qarabağın inkişaf modelinin əsasıdır. Model uğurlu olarsa, Azərbaycanın qalan hissəsinə də tətbiq olunacaq.

Qarabağda smart region yanaşma həyata keçirilir. Bu, müasir şəhərsalma, 4-cü sənaye inqilabının çağırışlarına yanaşma, xarici kapital və hər şeydən əvvəl yeni idarəetmə modelidir. Ermənistan üçün yükə çevrilən Qarabağ Azərbaycanın inkişafı və ilham mənbəyidir.

Sakinlərinin təhlükəsizliyini tam təmin edilməsi üçün ilk olaraq sərhədin təhlükəsizliyi təmin olunmalı, ərazilər minalardan tamamilə təmizlənməlidir, zədələnmiş torpaqlar istifadəyə yararlı vəziyyət üçün gətirilməli, Ermənistanın Azərbaycana vurduğu həm maddi həm də, mənəvi zərərlər ödənilməlidir.

Qarabağın inkişaf strategiyasının həyata keçirilməsini üçün idarəetmə, nəzarət və qiymətləndirmə mexanizmi, həmçinin şəffaf və dəqiq maliyyə təminatı qurulması vacib alimlərdir. Qəsəbə, şəhər və kəndllərin yeni normativ-hüquqi planları əsasında işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına, quruculuq və abadlıq işlərinə başlanacaqdır. Ərazidə iqtisadi infrastruktur, o cümlədən yollar, meliorasiya , işıq, su, qaz, kanallizasiya və s. sistemləri yaratmaq,yenidən bərpa etmək və inkişaf etdirmək vacibdir.

Eyni zamanda, rayonda sosial infastrukturun, həmçinin təhsil və səhiyyənin inkişafı mühüm rol oynayır. Onun əsasında azad edilmiş ərazilərdə dövlət və bələdiyyə orqanlarının hərtərəfli dəstəyi, rəqabətqabiliyyətli iqtisadiyyat sahələrinin inkişafı və əhalinin məşğulluğunun, o cümlədən özünüməşğulluğun təmin edilməsi

dayanır. İqtisadi və sosial məsələlər əsasında məcburi köçkünlərin mərhələli şəkildə geri qaytarılması, insan resurslarının inkişafı, dövlət investisiyaları ilə yanaşı xarici və yerli investisiyaların cəlb edilməsi, sahibkarlıq, kiçik və orta sahibkarlıq, innovativ iqtisadi həllər, yeni texnologiyalar, yaşıl iqtisadiyyat və tsiklik iqtisadiyyat prinsipləri əsasında inkişaf etdiilməsi vacibdir.

Yerli karxanalar, qum, çınqıl, əhəng, sement və s. azad olunmuş ərazilərdə tikinti və bərpa işlərində istifadə olunur. İstehsalın bərpası üçün regionları təmsil edən 35-ə yaxın mövcud tikinti şirkətinin köçürülməsinə, işçiləri üçün konteyner tipli vaqonların və modul tipli yaşayış evlərinin yaradılmasına ehtiyac var.

Bundan başqa, ərazidə dövlət, özəl və xarici şirkətlərin iştirakı ilə avtomobil yolları, Horadiz-Naxçıvan , Bərdə-Xankəndi dəmir yolları yenidən bərpa edilməlidir. Bu şirkətlər vasitəsilə regionlarda ilk olaraq mobil rabitə sistemi, daha sonra isə poçt rabitəsi şəbəkələrinin, o cümlədən asfalt-betondan mobil elektrik stansiyalarının, elektrik enerjisi, su və qaz təchizatının qurulmalıdır.

Dövlət, özəl və xarici şirkətlərin  ərazidəki bir çox mövcud və qəzalı yaşayış məntəqələrinin, o cümlədən bu və yeni tikinti şirkətlərinin, ayrı-ayrı mikro və kiçik müəssisələrin, 14 şəhər və 46 qəsəbənin yenidən qurulmasında fəal iştirak edəcəkləri şübhəsizdir.Həmçinin çoxsaylı xəstəxana və poliklinikaları, məktəbləri və uşaq bağçalarını, kütləvi kitabxanaları bərpa edilməlidir. Şübhəsiz ki, işğaldan azad edilmiş şəhər və kəndlərdə kiçik və orta sahibkarlıq subyektləri tərəfindən müasir mağazalar, məişət və ictimai iaşə obyektləri, marketlər və digər sosial infrastrukturlar tikilib istifadəyə veriləcəkdir. Hesab edirik ki, bu şirkətlərin tənzimlənməsi prosesinə güzəştli  (bir neçə illik vergidən azadolma) vergi şərtləri və kredit (aşağı faiz) sistemləri daxil olacaq.

Qeyd edək ki, işğaldan azad edilmiş münbit torpaqlardan səmərəli istifadə etmək üçün şəhər və kənd evlərinin bərpası və ya yenidən qurulması zamanı sistemli yer seçiminə üstünlük vermək məqsədəuyğun olardı. Eyni zamanda, ərazinin relyefini nəzərə alaraq, əvvəllər itirilmiş, müasir istilik sistemi ilə təchiz edilmiş əmlakın hər

kvadratmetrinə görə dövlət tərəfindən 600-1000 manat vəsait ayrılması, həmçinin minalardan təmizləndikdən və söküldükdən sonra torpaq islahatı aparılmalıdır. Qarabağın şəhər və qəsəbələrində çoxmərtəbəli binaların tikintisinə, geniş və zəngin küçələrin salınmasına üstünlük vermək olar.

AR. Torpaq Məcəlləsinin 56-cı maddəsinin 8-ci bəndinə görə YÖİ orqanları mülkiyyətində olan icarəsi nəzərdə tutulmuş torpaq sahələri və yeni torpaq sahələrinin dövriyyəyə cəlbi edilməsi proqramları haqqında əhaliyə məlumat verməli və KİV – də hesabatı daimi illər üzrə yeniləməlidirlər. Bələdiyyələrin qanunamüvafiq şəffaf rejimdə fəaliyyət prosesi icra olunur ki, bu da münasibətləri öz növbəsində tənzimləyir.

Qələbədən sonra “qaçqın” və “məcburi köçkün” sözləri tarixi arxivə göndərilməli, Fövqəladə Hallar Nazirliyi və ya Müdafiə Nazirliyi hərbi xidmətə çağırmalıdır (müvafiq tikinti peşələrinin könüllü olmağa hazır olması).

Hərbi heyətin iştirakı ilə formalaşdırılacaq xüsusi mühəndis-texniki hərbi strukturun təyinatı vahid intizamlı komandanlıq altında qarşıya qoyulan hədəflərin qısa müddətdə yerinə yetirilməsini təmin edəcək.

İşğaldan azad edilmiş ərazilərdə müasir texnika və texnologiya ilə təchiz edilmiş infrasturukturdan, yerli xammaldan, enerjidən və digər resurslardan aşağıdakı istiqamətlərdə səmərəli istifadə etmək imkanına malik kiçik və orta müəssisələrin yaradılması zəruridir;

- İqtisadi inkişaf; aktiv məşğulluq, eləcə də yüksək səviyyəli özünüməşğulluq aşağıdakıları mümkün edəcəkdir,
- Aqroparkların və birgə müəssisələrinin (kənd təsərrüfatı məhsulları, heyvan dəriləri, dərman bitkiləri, yem təchizatı, arıçılıq, süd, süd məhsulları istehsalı, müvafiq olaraq quru meyvələr, şirələr və kompotlar) toplanması və emalı regionlara xasdır,

- Qarabağda çoxlu sayda faydalı qazıntı yataqlarının olması Kəlbəcər və Zəngilan rayonlarında birgə mədənçıxarma və əlvan metal müəssisələrinin yaradılmasına imkan verə bilər,
- Beynəlxalq təcrübənin tətbiqi ilə Qarabağın mövcud 329 inzibati rayonunun 161-də üç və daha çox kəndi və 200-1000 nəfər əhalisi olan özəl və ya qarışıq tipli aqroparkların yaratmaq mümkün olacaqdır,
- Rayonda 46 yaşayış məntəqəsinin olması və şəhərlərin sənaye potensialı burada 28 sənaye və xidmət sahəsinin yaradılması imkanını reallaşdıra bilər,
- Kəlbəcər, Şuşa və Laçında böyük mineral su ehtiyatlarının olduğunu nəzərə alaraq, geniş çeşiddə suyun qablaşdırılması və istehlakı üçün müvafiq ticarət müəssisəsinin yaradılması da həmçinin yüksək iqtisadi səmərəni verə bilər.
- AMEA-nın Yüksək Texnologiyalar Parkının filialı olan AMEA-nın Şuşa Regional Elm Mərkəzinin yaradılması və mövcud elm və təhsil müəssisələrinin, sənaye müəssisələrinin iştirakı ilə Şuşada müasir texnologiya parkının yaradılması iqtisadi potensialın səmərəli istifadəsinə imkan verə bilər,
- "Azərxalça" ASC-nin Qubadlı, Cəbrayıl və Ağdam rayonlarında filiallarının yaradılması, bu və digər əlverişli şəraitin inkişafı kiçik və orta sahibkarlığın dinamik inkişafını sürətləndirər,
- Füzuli və Cəbrayıl rayonlarında transsərhəd azad ticarət zonanın yaradılması bölgənin ixrac potensialını genişləndirə bilər.
- Zəngilan Şuşa, Cəbrayıl, Füzuli,Qubadlı, rayonlarında tarixi məbədlərin olması orada turizmin inkişafına şərait yaradacaq,
- Qarabağın hər bir inzibati rayonunda hazırlanacaq özünüməşğulluq proqramı çərçivəsində kənd təsərrüfatı sahələrində kiçik və orta sahibkarlıq fəaliyyətinin təşkili,
- Fərdi, mikro və kiçik sahibkarlar tərəfindən dünya şöhrətli Qarabağ atlarının sayının artırılması,

- Buynuzlu heyvan dərilərindən geyim və digər istehlak mallarının istehsalının tənzimlənməsi yerli əhalinin maddi rifahını yaxşılaşdıra bilər,
- Rayonda dağlıq şəhər və kəndlərində qardaşlığın mövcud və uğurlu təcrübəsindən istifadə edərək kiçik və orta sahibkarlıq obyektlərində, həmçinin yaşayış evlərində alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilməsi məqsədəuyğun olardı.

Qarabağda əhalinin məskunlaşması başa çatdıqdan sonra:

- Özəyi yeni Milli Konservatoriyanın filialı olan Şuşada çoxməqsədli musiqi məktəbləri, tikiləcək yeni musiqi alətlərinin istehsalatı ilə məşğul olan ticarət müəssisələri, Muğam Evi, orkestrlər və xalq çalğı alətləri ansamblları və s. Musiqi dəsti;
- Regionlardakı bütün musiqi məktəblərinin bərpası;
- Əlverişli şəhərlərdə "DOST" və "ASAN xidmət" mərkəzləri yaradılması;
- Regionların iqtisadi, sosial inkişafınının tələblərinə uyğun olaraq ixtisaslı mütəxəssislərin hazırlanması üçün nəqliyyat-kommunikasiya şəbəkəsinin əlverişli olduğu mərkəzi şəhərlərdən birində Qarabağ Dövlət Universitetinin və ictimai filiallarının yaradılması mümkün olacaq, özəl ali və orta məktəblər və peşə məktəbləri yaradılacaqdır.

Təbii ki, həyata keçirilən tədbirlər işğaldan azad edilmiş bütün torpaqlarımızda dini-mədəni abidələrimizin, dağıdılmış infrastrukturumuzun yenidən qurulacağını, bərpa ediləcəyini, təmir ediləcəyini söyləməyə əsas verir.

Ümumiyyətlə, Qarabağ regionu Azərbaycanda iqtisadi inkişafda yeni coğrafi artım mərkəzi kimi olacaqdır. Regionda investisiya və tikinti işləri Azərbaycanın ümumi daxili məhsulunun inkişafını və artımını sürətləndirəcək.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Belə bir nəticəyə gəlmək olar ki, ölkəmizdə fəaliyyət göstərən yerli idarəetmə orqanlarının iş prinsipi, problemlərin həlli istiqamətində atılan addımlar və tədbirlər daima diqqət mərkəzindədir. Azərbaycanda dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili, işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin yaradılmasının əhəmiyyəti istiqamətində tədbirlər planı hazırlanmışdır. İşğaldan azad olunan ərazilərimiz üzrə əsas məsuliyyət YÖİ orqanlarının üzərinə düşür.

Ölkəmizin ərazi bütövlüyündən və mövqeyindən asılı olaraq, yerli idarəetmələrin inkişaf istiqamətləri və prioritetləri təhlil olunmuşdur. Yerli özünüidarəetmə orqanları və mərkəzi hakimiyyət orqanlarının vəzifə öhdəliklərinə və fəaliyyət icazələrinə əsaslanaraq vahid idarəçilik prinsipi əsasında qeyri-mərkəzləşdirmə ilə yerli mərkəzləşmə arasında fərq yaradan icrası müəyyən olunmuş və vəzifələrə uyğun olaraq inzibati-iqtisadi vəziyyət qiymətləndirilmişdir.

Şəhərsalma üzrə layihələndirmə sosial, iqtisadi və mədəni əlaqələri qoruyacaq şəkildə icra edilir. Layihə üzrə işlər aparılır və bu işlər daima diqqət mərkəzindədir.İşğaldan azad olunmuş ərazilərdə mədəni, sosial və iqtisadi baxımdan mühüm addımlar atılır. Bu inkişafın nəticələrini günbəgün görməkdəyik.Yenidən layihələndirmə məsələlərin ortaya qoyulmuşdur. Aztəminatlı vətəndaşların sosial rifahınım artırılması yönündə yenidən qurulma məsələləri vacib hal almışdır.

Təklif oluna bilər ki:

- İşğaldan azad olunmuş ərazilərdə əhalinin tam məskunlaşması üçün sosial rifahın yaxşılaşdırılması, yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi, qaz-su təhcizatının, elektrik enerjisinin təmin olunması, eyni zamanda tikinti-abadlıq istiqamətində atılan mühüm addımlar həyata keçirilməli. Bu işlər müəyyən qədər yekunlaşmışdır. Aparılmış tənzimləmə və dəyişikliklər qanun normalarına əsasən ədalətli şəkildə icra olunmalıdır.

- İşsizlik səviyyəsinin aradan qaldırılması üçün yeni zavod və fabriklərin yaradılması, obyektlərin açılması əhalinin sosial rifahını yaxşılaşdırar.
- Maddi-mənəvi həyat şəraitinin yaxşılaşdırılması üçün əhalinin bütün lazım olan şəraitlə təmin edilməsi məqsəduyğundur. Buna əhalinin torpaq sahələri, mal-qara və əkinçiliklə ilə təmin edilməsi aiddir.
- Yerli özünüidarə etmə orqanlarının fəaliyyətinin genişləndirilməsi istiqamətində daha çox işlər görülməlidir.
- Yenidənqurma və bərpa işləri ilə yanaşı, bu ərazilərdə yaşayan əhalinin kütləvi informasiya vasitələri ilə təmin olunması üçün telekommunikasiya və texnoloji proseslərin inkişafı mühüm amillərdən biridir.
- Bərpa olunmuş ərazilərdə tikinti və bərpa işlərinin aparılması ilə yanaşı, təhsil və səhiyyənin inkişafı xüsusi diqqət mərkəzində olmalıdır. Belə ki, məktəb, uşaq bağçalarının, poliklinika və müasir tipli xəstəxanaların tikintisi ön plana çəkilməlidir.
- Təhsil səviyyəsinin yüksəldilməsi istiqamətində işğaldan azad olunmuş ərazilərdə müasir dövrün tələblərinə cavab verən univeristetlər, kolleclər inşa edilməlidir.
- İşğaldan azad olunmuş ərazilərdə tibbi məntəqələrin, səhiyyə ocaqlarının tikilməsi və bura peşəkar tibb işçilərinin təyin olunması.
- İşğaldan azad olunmuş ərazilərdə hava limanı və avtovağzal tikilməsi və bu yöndə addımlar atılması.
- Yerindən, mövqeyindən, əhalisinin sayından asılı olmayaraq YÖİ orqanlarının hərtərfli təhlil planı hazırlanmalıdır. Yerli hökümətlərin arasındakı əyləc balansının mexanizmi yaradılmalı və xalqın tələbatını ödəyən sahələrdə xidmət göstərməlidirlər.
- YÖİ orqanlarının iş rejimi və göstərdiyi xidmətlər müntəzəm şəkildə ölkə vətəndaşlarının nəzarətində açıq şəkildə yoxlama prosedurlarının həyata keçirilməsinə imkan verməlidir.

- Vətəndaşlar tərəfindən xidmət səviyyəsinin elektron olaraq müşahidə olunması üçün xidməti müşahidə sistemlərinin qurulması üzrə proqram yaradılmalıdır.
- Yerli dövlət və bələdiyyə orqanlarının təşkilatçılığı ilə yeni müəssisələr istifadəyə verilməlidir. Bu sayədə nəzarət funksiyası daha da gücləndirər.
- YÖİ orqanlarında institusionallıq, inzibati-iqtisadi və texniki imkanların gücləndirilməsi və təkmilləşdirilməsi, ictimai maraqları göz önündə tutaraq dövlət qulluğu üzrə xidmət səviyyəsinin ölçülməsi və təmini üsulları inkişafı istiqamətində addımlar atılmalıdır.
- Dövlət referendum təşkil edərək yenidən əks-mərkəzləşmə islahatı aparmalı bələdiyyələrin yerli hakimiyyətdə daha çox səlahiyyətə malik olan sturuktura çevrilməsinə nail olmalıdır. İlk növbədə onların yeni statusu müəyyənləşməli, sonra isə onların səlahiyyətləri genişləndirilərək ona uyğun maliyyə vəsaiti ilə təmin etməlidir. Əks-mərkəzləşmə islahatları isə Konstitusiyada dəyişiklər tələb edir. Buna görə hökumət tezliklə Konstitusiya islahatlarını – referendum keçirilməsini planlaşdırmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə sosial rifahın yaxşılaşdırılması və əhalinin yerləşdirilməsi məqsədilə əsaslı şəkildə həmin ərazilərdə yenidənqurma və bərpa işlərinin aparılması prosesi uğurla həyata keçirildiyi təqdirdə əhalinin yaşayış səviyyəsi yüksələr, yerli idarəetmə orqanlarının fəaliyyəti daha da səmərəli olar.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası, (1995). IV bölmə

2. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.(2020) Bakı. № 1170

3. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.(2019) Bakı. № 500

4. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2021) Bakı. № 1243

5. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə , Azərbaycan Respublikasının Qanunu. (2001) Bakı. № 238-IIQ

6. Abdullayev E, Həsənova S. (2002). "Bələdiyyə hüququ", Bakı . " Təhsil" 336s

7. Azərbaycan Respublikasi İqtisadi İnkişaf Nazirliyi.(2012), "Yuxari Qarabağ İqtisadi Rayonunun Pasportu". Bakı. 5 səh.

8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası. "İnzibati-ərazi vahidləri", Bakı.184 səh.

9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası. "Ermənistan-Azərbaycan münaqişəsi", Bakı.196 səh

10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kitabxanası. (2005) "Bələdiyyə hakimiyyəti (sənədlər toplusu)". Bakı .6-8 səh.

11. Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi.(2017), "Yerli Özünüidarə Haqqında Avropa Xartiyası" . 9 səh

12. Xəlilov Q., "Yerli özünüidarəetmə və onun özünütəyinetmə məzmunu". (2018) . Bakı. "Qanun nəşriyyat".22-27 səh.

13. İbrahimov İ. (2014), Bələdiyyə idarəçiliyin beynəlxalq təcrübəsi, Bakı. "Ziya", 338 səh

14. İbrahimov İ. (2018), Bələdiyyə idarəçiliyi, Bakı. "Təbib", 300-384 səh.

15. Ruintən K.F.(2008) Ermənistanm Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı «Adiloğlu» nəşriyyatı, 260 səh.

16. Səbuhi Yusifov, Vüqar İsmayılov, Azər Hüseyn .(2016) "Yerli özünüidarəetmə hüquqi və maliyyə əsasları". Bakı. "Ləman nəşriyyat poliqrafiya",168-205 səh.

17. Səlimzadə M.İ.(2010). Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktik məsələlər.Bakı. "Elm və təhsil" .280 səh

18. Səlimzadə M.İ., Xəlilov Q.R., (2010),YÖİ: anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar. Bakı, "Elm və təhsil", 130-135 səh.

19. Süleymanov E , Süleymanov V . (2012) Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı. "CBS Polygraphic". 21 səh.

20. Əsgərov Z, (2011) Konstitusiya hüququ dərslik, Bakı. Bakı Dövlət Universiteti nəşriyyatı. 57 səh.

**Türk dilində**

1. Varcan.N, Taraktaş.A, Hacıköylü.C (2013) . Yerel Yönetimler. Eskişehir. Anadolu Üniversitesi, s.158 .

2. Bozlağan B., Demirkaya Y., (2008), Türkiyede Yerel Yönetimler. İstanbul, "Nobel Yayın Dağıtım", s.390-392.

3. Ökmen M., Elma F., (2013), Türk Dünyasında Yerel Yöneimler. İstanbul, "İMAK Ofset", s.200-205.

4. Merkezi Yönetim İle Yerel Yönetimler Arasında Görev Paylaşımı, Kamu Hizmetlerinin Görülmesinde Etkinlik ve Silifke Belediyesinde Bir Uygulama(2014). Karamanoğlu Mehmetbey Üniversitesi ,Sosyal Bilimler Enstitüsü. Karaman. s.12

5. Yerel yönetimler t. C. Onuncu kalkınma planı 2014/2018- kalkinma bakanliği özel ihtisas komisyonu raporu (2014), Ankara.

6. Toprak.Z, (2014), Yerel Yönetimler.İzmir, Dokuz Eylül Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Kamu Yönetimi Bölümü, s.36

## İnternet resursları:

1. https://sia.az/az/news/politics/892857.html,2022
2. http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/2030-azaerbaydzan-n-ishzhhaldan-azad-edilaen-aerazilaerindae-sahibkarl-zhh-n-inkishaf-istizhamaetlaeri.html,2020
3. https://apa.az/az/daxili_siyaset/Prezident-Ilham-liyev-isgaldan-azad-olunmus-razilrind-muvqqti-xususi-idaretmnin-tskili-haqqinda-frman-imzalayib-612864,2020
4. https://apa.az/az/cebhe_xeberleri/Isgaldan-azad-olunmus-razilrd-giris-cixisin-xususi-rejimi-ttbiq-edilck-612868,2020
5. https://report.az/qarabag/xocavendin-polis-sobesi-hadruta-yerlesdirilib,2020
6. https://modern.az/az/news/265923/agdama-komendant-teyin-edildi-
7. https://musavat.com/news/kelbecere-komendant-teyin-edilib-polis-sobesi-seherin-merkezinde-yerlesdirilib_759015.html
8. https://apa.az/az/sosial_xeberler/Klbcr-v-Lacina-komendantlar-tyin-edilib-618018,2020
9. https://bakuresearchinstitute.org/az/how-should-self-government-be-established-in-the-liberated-territories/
10. https://justice.gov.az/categories/1038
11. https://web.archive.org/web/20210112012454/https://azeridefence.com/mudafi%C9%99-nazirliyinin-h%C9%99rbi-qulluqcularina-general-mayor-ali-h%C9%99rbi-rutb%C9
12. http://iacis.az/wp-content/uploads/2017/09/Yerli-%C3%B6z%C3%BCn%C3%BCidar%C9%99etm%C9%99orqanlar%C5%B8n%C4

%C2m-f%C9%99aliyy%C9%99tind%C9%99-Az%C9%99rbaycan-Respublikas%C4%B1-Milli-M%C9%99clisinin-rolu-2.pdf

13. https://www.osce.org/files/f/documents/a/4/16424.pdf,2004
14. https://president.az/articles/50474,2021
15. http://www.e-qanun.az/framework/41320
16. http://www.e-qanun.az/framework/1026,2001
17. https://economy.gov.az/article/azerbaycan-respublikasi-regionlarinin-2019-2023-ci-illerde-sosial-iqtisadi-inkishafi-dovlet-proqrami/30120
18. http://e-qanun.az/framework/46229
19. https://www.stat.gov.az/menu/5/source/Belediyye_tes.pdf
20. http://e-qanun.az/framework/46628
21. https://rm.coe.int/az-rbaycanda-yerli-v-regional-demokratiya-m-ruz-cil-r-j-vienen-niderla/1680a04d5b,2012
22. https://taxes.gov.az/az/post/303
23. http://dim.gov.az/upload/iblock/7e3/7e301bee04e71e6c5b79a7f2db719f2f.pdf,2022
24. https://www.researchgate.net/publication/270736615_The_Historical_Roots_of_Local_Self-Government_in_Czech_and_Slovak_Republics
25. https://repository.mruni.eu/bitstream/handle/007/16179/Kostytsky.pdf?sequence=1&isAllowed=y,2021
26. https://e-qanun.az/framework/4770
27. http://www.e-qanun.az/framework/1026
28. https://economy.gov.az/article/azerbaycan-respublikasi-regionlarinin-2019-2023ci-illerde-sosial-iqtisadi-inkishafi-dovlet-proqrami/30120
29. http://e-qanun.az/framework/46229,2020
30. https://qdf.gov.az/xeberler/?page=8
31. http://e-qanun.az/framework/46628,2021
32. https://az.trend.az/azerbaijan/politics/3342253.html

33. https://news.milli.az/society/925864.html

34. https://report.az/herbi-xeberler/azad-edilen-erazilerde-bolmelerimizin-herterefli-muhendis-teminati-uzre-tedbirler-davam-etdirilir/

35. http://www.aayda.gov.az/az/news/3741/fuzuli-hadrut-avtomobil-yolunun-tikintisi-suretle-davam-etdirilirhttps://ordu.az/az/news/202594/prezident-ve-birinci-xanim-zefer-yolunun-acilisinda-istirak-edibler-fotolar

36. https://azvision.az/news/259347/-ilk-agilli-kendimiz--zengilandan-xususi-reportaj--video+fotolar-.html

37. https://arxkom.gov.az/media/xeberler/azerbaycan-respublikasinin-dovlet-sehersalma-ve-arxitektura-komitesi-yaninda-qarabag-regional-memarliq-ve-sehersalma-bas-idaresi-haqqinda-esasname

38. http://femida.az/az/news/148017/azad-edilmis-erazilerde-belediyyeler-yaradilacaq,2021

39. https://president.az/az/articles/view/44886

40. https://e-qanun.az/framework/48088,2021

41. https://static.president.az/pdf/38542.pdf

https://www.realtv.az/news/az/67589/vusal-qasimli-inkishafin-qarabag-modeli-qurulacaq,2021

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Nəqliyyat sahəsində fəaliyyət.....................................................................47